

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

27 iyul 2024-cü il, şənbə

№ 133 (6719)

Qiyməti 60 qəpik




Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

N.S.Qasımova "Azərbaycanın Milli Qəhrəmanı" adının verilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə Natiq Səlim oğlu Qasımova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilsin (ölümündən sonra).

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 iyun 2024-cü il

# Onlar ölməzdir!

## İlham Əliyev: Şəhidlərimizin əziz xatirəsi hər birimiz üçün müqəddəsdir




Bax səh. 2

# Sülh olmasa...

Bax səh. 3




## "Xocalı" Çinə doğru istiqamət götürdü

Bax səh. 4

## Azərbaycan yeni iqlim maliyyə hədəflərini müəyyənləşdirir

Braziliyanın Rio-de-Janeyro şəhərində "Böyük İyirmilik" ("G20") ölkələrinin maliyyə nazirləri və Mərkəzi Bank rəhbərlərinin toplantısında qlobal iqlim çağırışlarına uyğun olaraq dünyada iqlim dəyişmələrinə qarşı mübarizənin vacibliyi və bu istiqamətdə qlobal təşəbbüslərin səmərəliliyi müzakirə olunub. Braziliyanın Maliyyə Nazirliyinin dəvəti əsasında Azərbaycanı təmsil edən maliyyə naziri Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizin qlobal iqlim dəyişikliyi üzrə davamlı maliyyə...

Bax səh. 5

## Zəngəzurda kəsişən maraqlar...



Bax səh. 3

## Növbəti qarayaxma kampaniyasına İcmadan cavab

Erməni diasporu muzdla tutduğu Luis Okamponu fasad kimi istifadə edərək Azərbaycana qarşı növbəti qarayaxma kampaniyasına başlamışdır. Kampaniya BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycanın ev sahibliyi etməsini hədəf alıb. Bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilir.

Bəyanatda, həmçinin deyilir: "Sözügedən kampaniyanın müəllifi qismində müsahibəsində L.Okampo özünü iqlim fəalı kimi qələmə vermiş, Azərbaycana qarşı böhtan atmış, soyqırımı...

Bax səh. 4

## Qarabağda 3 gün...

İşğal azad edilmiş ərazilərimiz xarici ölkələrin səyyahlarının diqqət mərkəzindədir. Təsadüfi deyil ki, həmin yerləri görmək istəyənlərin sayı gündən-günə artır. Son 4 il ərzində 50-yə yaxın ölkədən 360-dan çox beynəlxalq səyahətçi Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər edib.

Belə səfərlər vasitəsilə dünya ictimaiyyətinin diqqətini işğaldan azad olunmuş ərazilərdə törədilən vəhşiliklərə yönəltmək mümkün olur. Səyyahlar həm də Qarabağda aparılan sürətli bərpa və quruculuq işləri ilə tanış olurlar.

**13 ölkədən 35 səyyah...**

İyulun 25-də bir qrup beynəlxalq səyyahın Qarabağa və Şərqi Zəngəzura səfəri baş tutub. Səfər dünya miqyaslı dörd nəhəng səyyah klubundan biri olan MTP (Most Traveled People) səyahət klubu tərəfindən təşkil olunub. Heyətə dünyanın ən böyük səyyahları siyahısında adı ilk onluğa düşmüş Çarlz Vilinin (Charles Veley) rəhbərliyi ilə 13 ölkədən 35 tanınmış səyyah daxildir. Bu ölkələr sırasında ABŞ, Böyük Britaniya...

Bax səh. 5

## Türkiyə terrorla mübarizəni gücləndirir

Ankara Suriya ərazisinin terrorçulardan təmizlənməsinin tərəfdarıdır. Bu barədə cümə axşamı Ankarada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə Türkiyə Milli Təhlükəsizlik Şurasının (MTŞ) iclasının yekunlarına dair açıqlanan bəyanatda deyilir. Bildirilib ki, bu, ilk növbədə Suriyanın maraqlarına cavab verir və ölkənin gələcək inkişafına zəmanət verir. MTŞ-də Türkiyənin Suriyada "genişmiqyaslı ictimai harmoniya" mühitinin formalaşmasına bundan sonra da töhfələr verməyə hazır olduğu vurğulanıb.

Bəyanatda Türkiyə və Suriya xalqları arasında gərginliyin artmasının yolverilməzliyi, həmçinin İraq və Suriya da daxil olmaqla qonşu ölkələrin ərazi bütövlüyü və suverenliyinə hörmət məsələsində Ankaranın mövqeyinin dəyişməzliyi göstərilir.

Ümumiyyətlə, Türkiyə regionda, o cümlədən Yaxın Şərqdə sabitliyin və...

Bax səh. 6

## Öz budağından yıxılan ağac

*Ədəbi təsirlə ədəbi oğurluğu qarışdırmaq olmaz, hərçənd bunları bir-birindən ayırmaq elə də asan deyil. Məsələn, Onore de Balzakın "Qorio ata" romanının Şekspirin "Kral Lir" faciəsindən ilhamlandığına mənim şübhəm yoxdur, hər iki əsərdə insana xas ən ali duyğulardan sayılan nəsil instinktinin necə kor, necə amansız, necə tragik bir hiss olduğu göstərilir. Başəriyyəti bu günə gətirib çıxaran bunca möhtəşəm instinkt, ataliq duyğusu adını çəkdiyim əsərlərdə faktiki ifşa olunur.*

*"Təsir, yoxsa oğurluq?" adlı yazıdan*

Şekspirin "Kral Lir" pyesiylə Balzakın "Qorio ata" romanı qardaş əsərlərdir. Hər ikisi övladlarından yarımayan atadan - öz budağından yıxılan ağacdan bəhs eləyir. Eynən Şekspir kimi Balzak da insan ehtiraslarının tüğyanını, vəhşi tamahın püskürtüsünü təsvir eləməyin böyük ustasıdır. Onun da qəhrəmanı od tutub yanan dünya həvəslərinin alovunda bişib kömürə çıxır...

Bax səh. 7

## Tramp Ukrayna böhranını həll edə biləcəkmi?



Bax səh. 7

## Olimpiada: Fransanın içi və çölü



Bax səh. 6




# Onlar ölməzdir!

## İlham Əliyev: Şəhidlərimizin əziz xatirəsi hər birimiz üçün müqəddəsdir

**Ötən dövrdə 15 000-dək mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edilib**

İkinci Qarabağ müharibəsi Azərbaycan tarixinin xüsusi bir qəhrəmanlıq səhifəsidir. 44 günlük müharibənin nəticələrinə uyğun olaraq Azərbaycan son 200 illik tarixində ilk dəfə torpaq itkilərinə məruz qalmadı, əksinə ərazi bütövlüyünü, bunun davamı olaraq isə 2023-cü ildə Qarabağda suverenliyini hərbi-siyasi yolla təmin etdi. Qazanılan qələbələr xalqımızın əbədi qürur mənbəyidir.

Bu zəfərlərin əsas memarı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev, əsas qəhrəmanları isə şəhidlərimiz və qazilərimizdirlər. Dövlətimizin başçısı müxtəlif auditoriyalarda çıxışları zamanı müharibənin ağırlığının məhz gənclərin üzərinə düşdüyünü dəfələrlə vurğulayıb.
Azərbaycan gəncləri əsl vətənpərvərlik, fədakarlıq nümunəsi göstərdilər, "Arxamızda Vətəndir!" deyib daim irəli getdilər, sinələrini düşmən gülləsinə sipər etməkdən çəkinmədilər. Müharibədən sonra isə respublikamızda şəhidlərin xatirəsi ehtiramla anılır, onların ailələrinə və qazilərə hərtərəfli dövlət qayğısı göstərilir. Təkcə son vaxtlarda Prezident İlham Əliyevin Bakıda Zəfər parkında aparılan tikinti işləri ilə tanış olması, şəhid hərbçi Natiq Qasımova Milli Qəhrəman adının verilməsi ilə bağlı Sərəncam imzalaması, onun ailəsinə yeni mənzilin açarının təqdim edilməsi bu qayğının əyani təzahürüdür.

# Şəhid ailələrinə, qazilərə hərtərəfli dövlət qayğısı



## Möhtəşəm Zəfərimiz yaddaşlarda əbədi yaşayacaq

Dərsliklərdə, məktəblərdə uşaqlara, yeniyetmələrə mərdlik, igidlik, vətənpərvərlik hisslərinin aşılanması üçün mücərrəd qəhrəmanlardan bəhs etməyə heç bir lüzum yoxdur. Tam qətiyyətlə deyə bilərik ki, gənc nəslə nümunə ola biləcək qəhrəmanlarımızın sayı bu gün real həyatda kifayət qədər çoxdur. Azərbaycan hərbçiləri Qarabağın azad edilməsi uğrunda gedən döyüşlərdə misilsiz şücaətlər göstəriblər. Yetər ki, onları tanıdaq, Zəfər tariximizi dərindən öyrənək, yaddaşımıza əbədi yazaq. Elə Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Sərəncamdan dərhal sonra Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihələri hazırlandı və tikinti işlərinə başlanıldı. İyulun 24-də Prezident İlham Əliyev Zəfər parkında aparılan tikinti işləri ilə tanış olub. Qeyd edək ki, bundan əvvəl 2023-cü il sentyabrın 27-də Anım Günündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkına gəliblər. Dövlətimizin başçısı və birinci xanım burada görülən işlərlə tanış olublar və dəyərli tövsiyələrini veriblər.

8 Noyabr prospektində inşa olunan Zəfər parkının ərazisi doqquz hektardan çoxdur. Parkın girişində 44 tağ elementindən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edir. İnşası davam edən tağın hündürlüyü 44 metr, eni isə 22 metrdir. Parka keçid hissədə 8 Noyabr - Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə Zəfər Gününü və sarsılmaz birliyi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq.

Zəfər Muzeyinə park ərazisindən iki istiqamətdə giriş olacaq. Sahəsi 9 min 200 kvadratmetr olan muzeyin yan divarında Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan əsgər və zabitlərin adları qeyd ediləcək. Ziyarətçilər muzeyi gəzdikdən sonra park hissəsinə daxil ola biləcəklər. Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası və parka ümumi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı Meydanının inşası da nəzərdə tutulur.

Yaddaş bağçası parkın son hissəsində yaradılacaq. Bu hissəyə enən cığır hündür haşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. Yaddaş bağçasının ətrafında istirahət guşələri yaradılacaq, oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan Bayrağı dalğalanacaq.

## Heç kim unudulmur, heç nə yaddan çıxmır

Müharibələrin dəhşətli üzü var. Müharibələr ölüm-itim gətirir, insanların həyatını qırır, doğmaları bir-birindən ayırır. Bəzən də elə olur ki, qəhrəmanlar gec, illər ötəndən sonra aşkarlanır. Bütün dünyaya "Vətəni necə sevmək lazımdır" nümunəsi göstərmiş Natiq Qasımov kimi. Prezident İlham Əliyev 25 iyun 2024-cü il tarixində Natiq Qasımova "Azərbaycanın Milli Qəhrəmanı" adının verilməsi haqqında Sərəncam imzalayıb. O, bu şərəfli ada ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə ölümündən sonra layiq görülüb. Natiq Qasımovun düşmən tərərfindən qətlə yetirilməsindən uzun illər ötür. Onun döyüş yolunun təfərrüatları isə sonradan müəyyən edilib. Müharibələrdən bəhs edərkən nahaq yerə demirlər ki, heç kim unudulmur, heç nə yaddan çıxmır.

Qeyd edək ki, bir müddət bundan öncə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının yaydığı məlumatda N. Qasımovun qəhrəmanlığı və şücaəti düşmən hərbçiləri arasında vahimə və psixoloji gərginlik yaratdığı üçün səhra komandiri Vitali Balasanyan ona erməni əsgərlərin qarşısında müharibə qanunlarına zidd olaraq dəfələrlə ağır və dəhşətli işgəncələr verərək qətlə yetirdiyi bildirilib.



Məlumat üçün bildirək ki, Natiq Qasımov 1971-ci ildə Gədəbəy rayonunun Kiçik Qaramurad kəndində anadan olub. Ermənistan silahlı birləşmələrinin Azərbaycanın suveren ərazilərinə hücumu ilə əlaqədar 1991-ci ildə könüllü olaraq Ağdam rayonunda təşkil edilmiş "Qaradağ şahinləri" taboruna yazılıb və Vətənin müdafiəsində iştirak edib. 12 mart 1992-ci ildə Xocalı rayonu, Pirlər (Xramort) kəndi istiqamətində gedən döyüşdə erməni hərbçiləri tərəfindən əsir götürülüb.

O, Xocalı rayonu, Pirlər kəndi yaxınlığında yüksəklikdə yerləşən Alban kilsəsi uğrunda döyüş zamanı 6 döyüş yoldaşı həlak olduqdan sonra 5 gün ac-susuz orada qalaraq təkbaşına döyüşüb. Gülləsi qurtardığından 6-cı gün, 12 mart 1992-ci ildə rusiyalı və italiyalı jurnalistlər - Konstantin Smirnov və Enriko Sarzinin şahidliyi ilə Ermənistan hərbçiləri tərəfindən əsir götürülüb. Onun əsir götürülməsi faktı Rusiyada nəşr edilən "Oqonyok" jurnalının 1992-ci il 14 və 15-ci nömrələrində "Strax" adlı məqalədə təsvir edilib.

Onun həyat hekayəsi haqqında çəkilən "Oğul" sənədli filmi 2022-ci ildə ekran üzü görüb. Böyük Britaniyanın "Broken Pot Media" şirkətinin ərsəyə gətirdiyi, rejissoru və ssenari müəllifi Karan Sinqh olan film böyük rezonans yaradıb. Natiq Qasımov erməni zabitləri tərəfindən dindirilən zaman italyan müharibə fotoqrafı Enriko Sarsini də orada olub. Filmdə fotoqrafın müsahibəsi də yer alır.

## Genişmiqyaslı mənzil təminatı proqramı

Azərbaycanın şəhid ailələrinə və qazilərə qayğı siyasətinin mühüm bir istiqamətini onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması təşkil edir. Dünyada hansısa bir səbəbdən müharibəyə cəlb olunan ölkələrin sayı çoxdur. Ancaq onların heç də hamısında döyüşlərdə həlak olanların ailələrinə və yaxud əlillik qazanan hərbiçilərə dövlət tərəfindən inşa olunan mənzillər verilmir. Götürək elə məğlub Ermənistanı. Bu ölkədə bəlli kateqoriyadan olan insanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması yada da düşmür, onlara Prezident İlham Əliyevin təbirincə desək, heç daxma da verilmir. Respublikamız isə dünya üzrə müharibədə həlak olan hərbiçilərin ailələrini və qaziləri dövlət vəsaiti ilə tikilən mənzillərlə təmin edən azsaylı ölkələr sırasında yer alır. Ölkəmizdə şəhid ailələrinin və müharibə əlillərinin mənzillərlə təmin olunması proqramı uğurla həyata keçirilir. Xatırladaq ki, Prezident İlham Əliyev 25 yanvar 2021-ci il tarixində "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncam imzalayıb. Bu sənəd 2020-ci ildə Ordumuzun həyata keçirdiyi hərbi əməliyyatlar zamanı şəhidlik zirvəsinə yüksələn hərbiçilərimizin ailələrinin və bu müharibə ilə əlaqədar əlilliyi müəyyən edilən şəxslərin mənzil və ya fərdi evlərlə təminatını nəzərdə tutur.

Müvafiq proqrama uyğun olaraq ölkəmizdə 2025-ci ilədək 11 min şəhid ailəsinin və qazinin mənzillərlə təmin edilməsi planlaşdırılır. Prezident İlham Əliyevin 25 avqust 2021-ci il tarixdə imzaladığı növbəti Sərəncama əsasən Vətən müharibəsi qəhrəmanlarına və onlardan şəhid olanların ailələrinə də mənzillər verilir.

Bu günlərdə şəhid Milli Qəhrəman Natiq Qasımovun ailəsi də yeni mənzil almağın sevincini yaşayıb. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Natiq Qasımovun anası Dursun Qasımovaya Gəncə şəhərində yerləşən MİDA yaşayış kompleksindən ikiotaqlı, tam təmirli mənzil təqdim edilib.

Bildirilib ki, imtiyazlı şəxslərin mənzillə təminatı tədbirlərinə müdrik siyasətçi Heydər Əliyevin təşəbbüsü və tapşırığı ilə ötən əsrin 90-cı illərində başlanıb və hazırda da uğurla davam etdirilir. Ümumilikdə, ötən dövrdə 15 000-dək mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim olunub.

## Şəhidlərin ailə üzvlərinə, qazilərə göstərilən çoxsaylı sosial xidmətlər

Ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırıqları əsasında şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam etdirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən "Yeni Azərbaycan"a verilən məlumatda qurum tərəfindən postmüharibə dövründə şəhid ailələrinin üzvlərinə və qazilərə göstərilən çoxsaylı xidmətlər barədə geniş bəhs olunub. O cümlədən qeyd olunan sosial dəstək paketi çərçivəsində postmüharibə dövründə:

• şəhid ailələrinin üzvləri və müharibə veteranları olan 105 min şəxsə 118 min aylıq sosial ödəniş, 23,2 min şəxsə birdəfəlik ödəmə təyin olunub;

• şəhid ailələrinin, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlara 6072 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 528 avtomobil təqdim edilib;

• şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları olan 11 min şəxsə 65,6 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib;

• müharibə ilə əlaqədar əlilliyi olan 2173 şəxs 58,7 min reabilitasiya vasitəsi, o cümlədən 476 şəxs 572 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub;

• şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları olan 22 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 10,6 min şəxs özünüməşğulluq proqramına cəlb olunub;

•postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi 128 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 350 min xidmət göstərilib.

•Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən indiyədək 4133 nəfər Vətən müharibəsi iştirakçısına əlillik təyin edilib. Əlillik təyinatı aparılmış şəxslərin hər birinə proaktiv qaydada sosial ödənişlər təyin olunaraq ödənilib.

## Azərbaycan cəmiyyətinin böyük ehtiramı

Azərbaycan cəmiyyətində şəhidlərin ruhuna böyük ehtiram bəslənilir, onların ailə üzvlərinə və qazilərə hər cür diqqət göstərilir. O cümlədən Cənubi Qafqaz coğrafiyasının ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu da ölkəmizin ərazi bütovlüyü uğrunda şəhid olan hərbçilərin ailələrini və qazilərimizi daim diqqətdə saxlayır. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Fond bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onları narahat edən məsələlərin həlli üçün mütəmadi olaraq tədbirlər həyata keçirir. Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən bayramlar ərəfəsində şəhid ailələrinə, qazilərə baş çəkilməsi, onların sovqatlarla sevindirilməsi artıq ənənə halını alıb. Fondun dəstəyi ilə Vətən müharibəsində ağır yaralanan bir neçə qazimiz müalicə və reabilitasiya üçün Türkiyəyə göndərilib. Eyni zamanda, Mehriban Əliyevanın tapşırığına əsasən, "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsi uğurla tamamlanıb. Tətbiq edilən yeni protezlərin texniki imkanları amputasiya olunmuş hissə ilə hərəki uyğunluq yaradır. Bunun sayəsində protezlə ayaq və yaxud əl bir-birinə maksimum uyğunlaşmış olur. İstifadəçi protezi amputasiya olunmuş hissənin davamı kimi hiss edir və daha rahat addım atır, aktiv hərəkət edir.

Həmçinin "YAŞAT" Fondu da şəhid ailələrinə, eləcə də Qarabağ qazilərinə xüsusi dəstək nümayiş etdirməkdədir. Fondun Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün xüsusi layihəsi uğurla icra edilir. Şəhidlərimizin yeni doğulan övladlarının zəruri xərcləri fond tərəfindən qarşılanır. Bu məqsədlə 1000 manat məbləğində pul anaya təqdim olunur və dünyaya gələn körpənin adına 5000 manatlıq hesab açılır. Həmin hesaba vəsait fonda edilən ianələr hesabına toplanmış məbləğdən köçürülür. Həmin məbləğin üzərinə mütəmadi olaraq faiz toplanılır. Şəhid övladı 16 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək.

***Mübariz ABDULLAYEV***

# Sülh olmasa...

## Müdafiə Nazirliyindən Ermənistana sərt xəbərdarlıq

Belə görünür ki, uzun illər ərzində apardığı işğalçılıq siyasəti ilə regionda təhlükəsizliyə və sabitliyə ciddi təhdidlər yaradan Ermənistan özünün pis ənənəsindən - təxribat əməllərindən əl çəkmək istəmir. 44 günlük müharibədə, 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində burnu ovulan, bütünlüklə kapitulyasiyaya məruz qalan Ermənistan silahlı qüvvələri müəyyən fasilədən sonra iki ölkə arasındakı sərhədlərdə yenidən gərginlik yaratmağa cəhdlər göstərib. Belə ki, iyulun 20-si saat 22:10 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini iriçaplı silahlardan atəşə tutub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

Oxşar təxribat iyulun 25-də fərqli ünvanda təkrarlanıb. Bu dəfə saat 10:55 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter Ordumuzun Tovuz rayonunun Ağdam yaşayış məntəqəsi istiqamətindəki mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərib.

Bölmələrimizin sayıqlığı nəticəsində aşkar olunan pilotsuz uçuş aparatının fəaliyyətinə xüsusi texniki vasitələrlə müdaxilə edilib və ərazidən uzaqlaşdırılıb.

Sərhəddə Ermənistan tərəfindən törədilən təxribatlarla əlaqədar Azərbaycan Müdafiə Nazirliyi iyulun 25-də Bəyanat yayıb. Sənəddə qarşı tərəfə sərt müharibə xəbərdarlıqları edilib.

## Ermənistan Azərbaycana qarşı növbəti müharibəyə təhrik edilir

Son vaxtlarda N.Paşinyan və Ermənistanın digər yüksək səviyyəli rəsmiləri davamlı olaraq ölkələrinin sülhə sadiqliyindən bəhs edirlər. Hətta onlar sülh sazişinin cəmi bir ay ərzində imzalanması ehtimalından da danışırlar. Ancaq bütün bunlar boş sözlərdir və havaya atılan gülləyə bənzəyir. Dildə sülh deyib özünü dünyaya "ağ göyərçin" timsalında təqdim etməyə çalışan bu dövlət reallıqda fərqli davranışlar sərgiləyir. Bu davranışlar sülh çağırışları ilə daban-dabana ziddiyət təşkil edir.

Ermənistanda revanşist qüvvələr var və onlar Azərbaycanın ərazi bütövlüyünü, Qarabağ üzərində suverenliyini tam təmin etməsi reallığı ilə barışa bilmirlər. Həmin qüvvələr sanki pusquda dayanaraq qisas almaq üçün məqam gözləyirlər. Ermənistanın hərbi büdcəsini artırmasını, Hindistandan, Fransadan öldürücü silahlar almasının başqa məntiqi yoxdur. "Bir ay ərzində sülh sazişini imzalamağa hazırıq" deyən ölkə bunları nə üçün edir? Xaricdən tədarük olunan silahların tuşlana biləcəyi ən potensial ölkə, heç şübhəsiz ki, Azərbaycandır.

Əlbəttə, Ermənistanın öz gücünə Azərbaycanla yeni müharibəyə başlamaq imkanları sıfıra bərabərdir. Revanşistləri qızışdıran, məğlub dövləti yeni müharibəyə təhrik edən kənar güclərin canfəşanlığını xüsusi qeyd etmək lazımdır. Burada bir sıra digər ölkələrlə yanaşı, erməni lobbisinə sıx bağlı olan Fransa hakimiyyətinin, şəxsəm E.Makronin mənfi rolu qabarıq şəkildə nəzərə çarpır. Bütövlükdə Fransanın Ermənistanı birtərəfli qaydada dəstəkləməsi həm siyasi, həm də hərbi və digər müstəvilərdə təzahür edir. Bəzi xatırlatmalar etmək yerinə düşər. İndiyədək Fransa hakimiyyəti həmişə Ermənistanı dəstəkləyəcəyinə dair çoxsaylı bəyanatlar verib, Avropa İttifaqı çərçivəsində Azərbaycana qarşı sanksiya tətbiq edilməsi çağırışları edib. Həmçinin Fransa parlamenti erməni lobbisindən aldığı tezislər əsasında ölkəmizə qarşı bir neçə qətnamə qəbul edib. Makron ə Makrondur ki, müəyyən müsbət dinamikanın əldə olunduğu Brüssel formatını alt-üst edib. Makronun Ermənistan rəhbərliyinə birbaşa siyasi təsiri bir qədər bundan əvvəl Avropa Birliyinin Londonda baş tutan Zirvə görüşündə yenidən təsdiqini tapdı. Həmin Zirvə tədbirindən öncəki günlərdə Ermənistan mətbuatında Azərbaycan Prezidenti ilə Paşinyanın Londonda növbəti görüşünün razılaşdırıldığı barədə məlumatlar tirajlanırdı və bu məlumatlar rəsmi dairələr tərəfindən təkzib olunmurdu. Sammitdə Makronla Paşinyan ikilikdə özlərisayağı görüşüb pıça-pıçla hansısa məsələlərdən danışdılar. Məhz həmin təmaslardan sonra Ermənistan tərəfindən Paşinyanın Azərbaycan Prezidenti ilə görüşməyəcəyi barədə açıqlamalar dövriyyəyə buraxıldı. Burada Paşinyana "görüşə getmə" tapşırığının Makrondan gəldiyi gün kimi aydındır.

Fransa siyasi müstəvidə olduğu kimi, hərbi cəhətdən də Ermənistanı hərtərəfli şəkildə dəstəkləyir. Məhz bu ölkənin səyləri sayəsində Avropa İttifaqının yarımhərbi missiyası Ermənistana göndərildi. Fransa tərəfindən Ermənistanın "Bastion" çoxməqsədli zirehli avtomobilləri və "Sezar" özüyeriyən artilleriya qurğuları ilə təchiz edilməsi istiqamətdə atılan addımlar hər kəsə yaxşı məlumdur. Makronun Londonda bəhs olunan Zirvə toplantısında Ermənistanın hərbiləşdirmə siyasətinə haqq qazandıran və Azərbaycana qarşı açıq qərəzli mövqe nümayiş etdirən fikirləri Fransanın regionda gərginlik yaratmaq və sülh prosesinə mane olmaq cəhdlərinin daha bir bariz nümunəsidir. Makron və digərləri yaxşı bilirlər ki, Azərbaycanın suveren ərazilərində Ermənistanın 30 il davam edən işğalına son qoymaq, ölkəmizin suverenliyini və ərazi bütövlüyünü bərpa etmək üçün apardığımız müharibə tam ədalətli müharibə idi. Biz heç bir dövlətə qarşı təcavüzə əl atmamışdıq, öz ərazilərimizi, suverenliyimizi təmin etmək istəyirdik və buna da nail olduq. İşğalçı dövlət olan Ermənistanın silahlanmasına haqq qazandırmaq isə əsla mümkün deyil. Ermənistana silahların verilməsi və törədilən təxribatlar yeni müharibə hazırlıqlarının tərkib hissəsidir. Müdafiə Nazirliyinin Bəyanatında bu məqama xüsusi diqqət çəkilərək vurğulanıb: "Qeyd edək ki, Ermənistan tərəfindən bu kimi təxribatların törədilməsi birinci hal deyildir və davamlı xarakter daşıyır. Amerika Birləşmiş Ştatlarının Ermənistanda keçirdiyi hərbi təlimlər, Fransanın Ermənistanı öldürücü silahlarla təchiz etməsi və Avropa İttifaqı tərəfindən "Avropa Sülh Fondu" adı altında Ermənistana ilkin mərhələdə on milyon avro dəyərində hərbi yardımın göstərilməsi işğalçı Ermənistanı bu kimi təxribatlar törətməyə həvəsləndirir və Azərbaycana qarşı növbəti müharibəyə hazırlaşdırılmasına dəlalət edir".

## Bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür

Sülhü sözdə deyil, real olaraq yüksək dəyərləndirən Azərbaycan 44 günlük müharibəyə, 23 saatlıq lokal xarakterli



antiterror tədbirlərinədək keçilən yolda bütün addımlarını təmkinlə atıb. Azərbaycan Prezidenti müharibədən qaçmaq üçün qarşı tərəfə işğal olunmuş ərazilərimizin dinc yolla boşaldılmasına çağırış edirdi. Ermənistan rəhbərliyi bu çağırışları nəinki eşitmədi, hətta daha genişmiqyaslı təxribatlara əl atdı. Məhz bundan sonra müharibə başladı. Nəticə Ermənistan üçün faciəvi oldu. Hətta müharibədən sonra da N.Paşinyan və komandası düz yola gəlmədi, üçtərəfli bəyanatın şərtlərini pozmaqla silahlı qüvvələrinin 15 minlik kontingentini ərazilərimizdən çıxartmağa tələsmədi. Həmin silahlı birləşmələr 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində bütünlüklə darmadağın edildi.

Ermənistan rəhbərliyi bütün bunlardan nəticə çıxarmalıdır. Azərbaycanın da səbrinin həddi var. Biz təxribatlara nə vaxtadək dözməliyik? Başında "Dəmir yumruğ"un zərbəsini bir dəfə hiss etmiş Ermənistan rəhbərliyi anlamalıdır ki, növbəti dəfə daha ağır dərs ala bilər. O həqiqət ortadadır ki, bu ölkə və onun havadarları nə qədər cəhd göstərsələr də, Azərbaycan Silahlı Qüvvələri ilə rəqabət apara biləcək ordu qurmağa qadir deyillər. "Müdafiə Nazirliyi bir daha xəbərdarlıq edir ki, Ermənistan və onun havadarları Cənubi Qafqaz regionunda yeni müharibə ocağı yaratmaq kimi niyyətlərindən çəkinməlidirlər. Ölkəmizə qarşı bu kimi təxribat əməlləri dayandırılmadığı təqdirdə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin arsenalında olan bütün vasitələrdən istifadə etməklə özünü müdafiə məqsədilə lazımi cavab tədbirləri görüləcəkdir.

Bildiririk ki, regionda vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin və onun havadarlarının üzərinə düşəcəkdir", - deyə Bəyanatda vurğulanıb.

*Mübariz FEYİZLİ*

# Zəngəzurda kəsişən maraqlar...

## ABŞ niyə fəallaşıb?

Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyin təmin olunması beynəlxalq birliyin diqqət mərkəzindədir. Yeni mərhələdə bölgədə sabitlik və əməkdaşlıq mühitinin formalaşması üçün Azərbaycanla Ermənistan üçün sülh müqaviləsinin imzalanması vacibdir. Azərbaycan dövləti regionun gələcəyi naminə qarşı tərəfə beynəlxalq hüquq normalarına əsaslanan sülh sazişini imzalamağı təklif edib. Uzun müddətdir ki, tərəflər sülh sazişi layihəsini müzakirə edir. Sonuncu dəfə bununla bağlı xarici işlər nazirləri arasında görüş 10-11 may tarixlərində Qazaxıstanın Almatı şəhərində gerçəkləşib.

İki ölkə arasında münasibətlərin normallaşdırılması prosesi ilə bağlı bəzi böyük dövlətlər vasitəçilik təşəbbüsü ilə çıxış ediblər. ABŞ da belə təşəbbüslər irəli sürən dövlətlərdən biridir. Təsadüfi deyil ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin sülh sazişi layihəsinin müzakirəsi ilə bağlı üç görüşü ABŞ-da baş tutub. Həmçinin, iyulun 10-da Vaşinqtonda NATO-nun 75 illiyinə həsr olunmuş Zirvə görüşü çərçivəsində ABŞ Dövlət katibi Antoni Blinkenin təşəbbüsü və iştirakı ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında görüş keçirilib. Rəsmi məlumata görə, görüşdə tərəflər Azərbaycan və Ermənistanın sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında tarixi sazişin yekunlaşdırılması istiqamətində əldə olunmuş irəliləyişi qeyd edib və bu istiqamətdə işi davam etdirməyə razılaşıblar. Bundan əlavə, ABŞ rəsmiləri mütəmadi olaraq, Azərbaycana və Ermənistana səfərlər edir, münasibətlərin normallaşdırılması üçün müxtəlif təkliflər verirlər.

### Lui Bono İrəvana niyə gəlmişdi?

Yeri gəlmişkən, qeyd edək ki, iyulun 25-də ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono Ermənistanda səfərdə olub. O, Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ilə Azərbaycanla münasibətlərin normallaşmasını müzakirə edib. Erməni tərəfinin məlumatına görə, görüş zamanı regional təhlükəsizlik və sabitliklə bağlı məsələlər, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması prosesi və son hadisələr müzakirə olunub. Bu səfərdən sonra ABŞ-ın Ermənistandakı səfirliyinin sosial şəbəkə hesabında belə bir paylaşım oedilib: "Ermənistanla Azərbaycan arasında sülh razılaşmasının vaxtı çatıb". "Sputnik Armenia" diplomatik missiyanın bu qənaətə Dövlət Departamentinin Qafqaz danışıqları üzrə müşaviri Lui Bono və ABŞ səfiri Kristina Kuinnin Ermənistanın yüksək vəzifəli rəsmiləri ilə görüşlərindən sonra gəldiyini iddia edib. Səfirliyin paylaşımında onların İrəvan və Bakı arasında davamlı və ləyaqətli sülhün yaradılması istiqamətində işi müzakirə etdiklərini də qeyd olunub.

### Rusiya və ABŞ-ın vasitəçilik təklifləri

Diqqəti cəlb edən məqamlardan biri Lui Bonun Ermənistana səfərinin Rusiya Xarici işlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın Moskvanın "Bakı və İrəvan nümayəndələrini danışıqlar üçün platforma ilə təmin etməyə və onlar üçün ən rahat şərait yaratmağa hazır" olması haqda bəyanatından bir gün sonraya təsadüf etməsidir. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə Rusiya tərəfinin bu mövqeyinə çox çevik cavab verib: "Azərbaycan Rusiyada və başqa yerlərdə Ermənistanla danışıqlara həmişə hazır olub".




### Keçmiş baş nazir: Bizi tam təslim etmək istəyirlər

Ermənistan isə rəsmi Moskvanın bu təklifinə cavab verməyib. Nə Xarici İşlər Nazirliyindən, nə də hökumətdən cavab yoxdur. "Niyə?" sualına 1992-1993-cü illərdə Ermənistanın baş naziri olmuş Xosrov Arutyunyan belə cavablandırıb: "Ermənistanın hazırkı hökuməti Rusiyanın istənilən təklifini, Ermənistan-Azərbaycan məsələsinin həlli üçün platformanın verilməsini rədd edir. Azərbaycan isə dərhal reaksiya verir və Rusiyanın qlobal geosiyasi proseslərdə rolunu çox yaxşı bilir və fürsəti əldən vermir". Onun sözlərinə görə, hətta Qərb blokunun nümayəndələri də bu gün açıq şəkildə deyirlər ki, Ukrayna müharibəsi sona çatır. "Yeri gəlmişkən, Ukrayna Prezidenti Zelenski Rusiya ilə danışıqlar aparmağı qadağan edən qanun qəbul etmişdi. Amma görünən odur ki, o, indi danışıqlara getməyə hazırlaşır ki, bu da Rusiyanın mövqelərini xeyli gücləndirəcək. Artıq hamı bütün Qərbin Rusiyanı strateji cəhətdən məğlub etmək planının iflasa uğradığını bəyan edir. İndi hər kəs Ukrayna münaqişəsini aktiv hərbi əməliyyatlar olmadan həll etməyin mümkün olub-olmayacağı ilə maraqlanır. Azərbaycan prosesləri dəqiq analiz edir. Bütün bunların fonuna indi ABŞ Ermənistana sülh təklif edir. Həmin təkliflər güzəştləri nəzərdə tutur. Məqsəd pantürkist planın həyata keçirilməsidir. ABŞ Ermənistana sülh təklif edir, amma sual budur ki, nəyin hesabına? Mən belə başa düşürəm ki, bizi tam təslim etmək istəyirlər. Çünki Ermənistan bütün strateji mövqelərini əvvəllər Qarabağdan danışan Azərbaycana veribsə, indi Ermənistandan danışırsa və bu şərtlər altında sülh müqaviləsi imzalamağ niyyətindədirlərsə, bu o deməkdir ki, Ermənistanın strateji mövqeləri tam əldən gedəcək. Əslində bu, növbəti kapitulyasiyadır", - deyə keçmiş baş nazir vurğulayıb.

### ABŞ Ermənistandan güzəşt tələb edir

Bəs ABŞ-ın "tərəflər güzəştə getməlidir" mesajı kimə ünvanlanıb? Təbii ki, bu mesajın əsas ünvanı Ermənistandır. Məlumdur ki, sülh üçün ən böyük maneələrdən biri Ermənistanın üzərinə götürdüyü öhdəliklərə əməl etməməsi, xüsusilə Zəngəzur dəhlizinin açılmasına əngəl olmasıdır. Vaşinqton isə bu dəhlizin açılmasında maraqlıdır. İyunun 28-də ölkəmizdə səfərdə olarkən ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayn regionda kommunikasiyaların açılmasının önəmini vurğulamışdı. Amerikalı diplomat keçirdiyi brifinqdə Orta Dəhlizin bütövlükdə region üçün çox vacib bir addım olduğuna inandığını demişdi: "Orta Asiya dövlətləri beynəlxalq bazara Rusiya və ya Çin vasitəsilə ixrac edirlər, indi onları Xəzər dənizi üzərindən keçərək bunu edə bilmək imkanını görürük". Onun sözlərinə görə, Azərbaycan Xəzər dənizindən keçən malları və xidmətləri qəbul edərək bunları qlobal bazara çıxmasına şərait yarada bilər: "Bu yol Gürcüstandan keçə bilər və ya Ermənistanla Türkiyədən keçərək beynəlxalq bazara çıxması üçün böyük imkan var. Bu fürsət həm də nəqliyyat xərclərini aşağı salacaq, həmçinin geosiyasi müdaxilədən təhlükəsiz alternativlər təmin edəcək. Tacikistandan Türkiyəyə qədər bütün xalqlar bu dəhlizin açılmasından faydalanacaq. Biz inanırıq ki, bu, bütün maraqlı tərəflərin razılığı ilə edilməlidir və biz bilirik ki, bu, Ermənistan və Azərbaycan arasında anlaşmadan başlayır". Nəzərə alsaq ki, Zəngəzur dəhlizi də Orta dəhlizin bir hissəsidir, o zaman ABŞ-ın kommunikasiyaların açılmasında marağı özünü aşkar surətdə büruzə verir. Vaşinqton Zəngəzur dəhlizinin açılması ilə qlobal rəqiblərini neytrallaşdırmağa, onları beynəlxalq ticarətdə dividentlərinin əhəmiyyətli dərəcədə azaltmağa çalışır. Yəni, Qərb Avropa-Qafqaz-Xəzər-Orta Asiya xətti üzrə nəhəng iqtisadi-ticari marşrutun yaradılmasında maraqlıdır. Ancaq əsas hədəf ondan ibarətdir ki, Rusiya və Çin bu nəhəng marşrutda birbaşa iştirakçı kimi söz sahibi ola bilməsin. Bu isə deməkdir ki, sözügedən beynəlxalq güclərin Zəngəzur dəhlizində maraqları toqquşur. Çünki hazırda Qərbin sanksiyalarından əziyyətdən çəkən Rusiya da Zəngəzur dəhlizinə nəzarəti əlində almağa niyyətindədir. Bu məsələdə Moskva 10 noyabr üçtərəfli Bəyanatına istinad edir.

*Nardar BAYRAMLI*

# Azərbaycanın üzərinə götürdüyü xüsusi missiya...

İyulun 26-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Somali Federativ Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Əhməd Moallim Fiqi ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, nazirlər arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

## Somalinin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Əhməd Moallim Fiqi ölkəmizə səfər edib

## Nazirlər arasında ikitərəfli münasibətlər müzakirə olunub

Görüşdə ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf perspektivləri, bu istiqamətdə atılacaq gələcək addımlar, habelə cari regional vəziyyət müzakirə olunub. Ceyhun Bayramov Azərbaycanla Somali arasında diplomatik münasibətlərin qurulmasından ötən 20 il ərzində, xüsusilə son illərdə ölkələrimiz arasında təmasların artmasının əməkdaşlıq perspektivlərinin müzakirəsində faydalı rol oynadığını diqqətə çatdırıb. Azərbaycanla Somali arasında siyasi məsləhətləşmələr haqqında imzalanmış sazişə uyğun olaraq, əməkdaşlığın genişləndirilməsində bu kimi mexanizmlərdən istifadənin vacibliyi vurğulanıb. Bir sıra istiqamətlər, o cümlədən kənd təsərrüfatı, balıqçılıq, neft və qaz sənayesi, yaşıl enerji, humanitar, təhsil sahələri üzrə əməkdaşlığın inkişafı üçün potensialın mövcudluğu, bu istiqamətlərdə qarşılıqlı təmasların və təcrübə mübadilələrinin aparılmasının əhəmiyyəti qeyd olunub.

Beynəlxalq və regional təşkilatlar, xüsusilə BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı hörmət, dəstək və həmrəyliyə əsaslanan əməkdaşlığın məmnunluq doğurduğu diqqətə çatdırılıb. Somalinin 2025-2026-cı illər üzrə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü müddətində beynəlxalq sülh və təhlükəsizlik səylərinin tərəfimizdən dəstəklənəcəyi ifadə olunub. Bununla yanaşı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində ölkəmizin təhsil təqaüd proqramlarından Somalinin faydalana biləcəyi diqqətə çatdırılıb. Həmçinin, ölkəmizin cari ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi çərçivəsində Somali ilə əməkdaşlığa hazır olduğumuz vurğulanıb.

Qoşulmama Hərəkatına sədrliyimizin Afrika ölkələri ilə əlaqələrimizin gücləndirilməsinə töhfə verdiyini diqqətə çatdıran Ceyhun Bayramov əməkdaşlığın inkişafının prioritetlərimizdən birini təşkil etdiyini, bu istiqamətdə ölkəmizin Afrika İttifaqı Komissiyası ilə münasibətlərin genişləndirilməsi niyyətində olduğunu bildirib. Nazir, həmçinin qarşı tərəfi postmünaqişə dövründə bölgədə inkişaf prosesləri, habelə işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma işləri və sülh prosesinin qarşısında duran çağırışlar barədə ətraflı məlumatlandırıb. Somali tərəfindən ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə göstərilən davamlı dəstək minnətdarlıqla xatırlanıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



## Ceyhun Bayramov: Ermənistan-Azərbaycan normallaşma prosesi istiqamətində danışıqlar davam edir

Daha sonra nazirlər görüşün yekunlarına dair mətbuat konfransı keçiriblər. Mətbuat konfransında C.Bayramov bildirib ki, Somali hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib. O həmçinin, qeyd edib ki, Ermənistan-Azərbaycan normallaşması prosesi istiqamətində işlər davam etdirilir: "Somali hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləyib. Bu həm 44 günlük müharibə dövründə, həm də ondan sonra müşahidə edilib. Mən postmünaqişə barədə həmkarıma məlumat verdim. Azad edilən ərazilər, oradakı bərpa-quruculuq, həmçinin mina təhdidləri haqqında həmkarımı məlumatlandırdım. Ermənistan-Azərbaycan normallaşma prosesi istiqamətində danışıqlar davam edir və bu barədə həmkarımı da məlumatlandırdım".

Azərbaycanın XİN başçısı 2025-2026-cı illər ərzində Somalinin BMT-nin TŞ qeyri-daimi üzvü seçilməsi münasibətilə həmkarını təbrik edib. "Bugünkü dialoqumuz çərçivəsində növbəti əməkdaşlıq imkanlarımız barədə fikir mübadiləsi apardıq", - deyən nazir əlavə edib ki, Afrika ölkələri ilə Azərbaycanın əlaqələrinin genişlənməsi hər zaman prioritetdir. "Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində Afrika ölkələrinin maraqlarını dünya səviyyəsində çatdırılmasına üzərinə xüsusi bir missiya götürüb. Bu baxımdan, Azərbaycanla Afrika İttifaqı Komissiyası arasında əlaqələrə önəm veririk. Hesab edirik ki, Azərbaycan-Somali əməkdaşlığı buraya xüsusi töhfə verir"-deyə C.Bayramov vurğulayıb.

Həmçinin, o rəsmi Bakı Somali rəsmilərini COP29 çərçivəsində Azərbaycana səfərə dəvət edib. "COP29 çərçivəsində Somalidən olan həmkarlarımızı ən yüksək səviyyədə Azərbaycanda görməkdən məmnun olacağıq", - deyə, C. Bayramov bildirib.

## Əhməd Moallim Fiqi: İllər ərzində münasibətlərimiz inkişaf edən xətt üzrə olub

Əhməd Moallim Fiqi isə Somali ilə Azərbaycan arasındakı əlaqələrin yüksələn xətlə inkişaf etdiyini deyib. Nazir bildirib ki, Somali Azərbaycanla əlaqələri genişləndirmək üçün bütün addımları atmağa hazırdır. O vurğulayıb ki, Somali və Azərbaycan müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edir, təcrübələrini bölüşür.

Dəvət üçün Azərbaycana təşəkkür edən qonaq deyib ki, bu səfər iki ölkə arasında diplomatik münasibətlərin 20 illiyinə təsadüf edir: "Mən əminəm ki, bu münasibətlər əməkdaşlığımızın dərinləşməsinə töhfə verəcək. İllər ərzində münasibətlərimiz inkişaf edən xətt üzrə olub. Biz bu gün müzakirələrimizdə ticarət dövriyyəsinin artırılması, neft-qaz sənayesi, kənd təsərrüfatı sahəsində əməkdaşlıq imkanlarını müzakirə etdik".

Nazir COP29-a sədrliyi münasibətilə Azərbaycanı təbrik edib: "Bizim hökumətimiz bu konfrans və onun hədəflərinə nail olması üçün Azərbaycanla işləməyə hazırdır. Dialoqumuz zamanı diplomatik əlaqələrimizi, beynəlxalq platformalarda əməkdaşlığı müzakirə etdik. Biz davamlı şəkildə səylərimizi birləşdirməliyik. Əldə etdiyi bütün uğurlar münasibətilə Azərbaycanı təkrar təbrik edirəm".

*Nardar BAYRAMLI*

# "Xocalı" Çinə doğru istiqamət götürdü

## Dünya okeanlarında Azərbaycanın nəqliyyat simvolu




"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) donanmasına yeni əlavə edilən "Handysize" tipli "Xocalı" gəmisi beynəlxalq dəniz sularında öz daşımalarını uğurla həyata keçirməkdədir. Son aylarda dünya okeanlarında ölkəmizin milli donanma brendlərindən birinə çevrilən gəmi Cənubi Koreyanın "Bukpyung" limanından qəbul etdiyi 30 min 800 ton sement yükünü Amerika Birləşmiş Ştatlarının "Portland" limanına çatdırıb. 20 gün davam edən səfər çərçivəsində "Xocalı" ümumilikdə 8390 kilometr məsafə qət edib. Bu səfərlə Azərbaycanın gəmiçilik tarixində ilk yaşanıb,"Xocalı" müstəqil Azərbaycan bayrağı altında ABŞ limanına yan alan ilk gəmi olub.

İyulun ortalarında Amerika səfərini uğurla tamamlayan "Xocalı" quru-yük gəmisi növbəti səmti 30 min tona yaxın yüklə Kanadadan Çinə və Yaponiyaya götürüb.

Gəmi Kanadanın Nanaimo və Styuart limanlarından yükü qəbul edərək 113 kilometrlik uzunluğu olan Böyük Ber çayından səfərə başlayıb. Daha sonra gəmi Sakit okeanı keçərək əvvəlcə Çinin Lanşan limanına, oradan isə Yaponiyanın Matsuyama limanına gedəcək. Gəminin 17 gün ərzində Çin limanına yan alması gözlənilir.

"Xocalı" Prezident İlham Əliyevin tapşırıq və tövsiyələri rəhbər tutularaq hazırlanan və Gəmiçiliyin Strateji İnkişaf Proqramı çərçivəsində alınan "Handysize" tipli ilk gəmidir. 2024-cü ilin may ayında Çində istismara verilən gəmi 38 min 593 ton yükgötürmə imkanına malikdir, uzunluğu 180 metr, eni 30 metr, bortunun hündürlüyü 15 metr, suya oturumu 10,47 metr, maksimum sürəti 15,7 knotdur. Suya oturumu maksimum yük götürməklə, onun bir çox dayaz limanlara belə rahatlıqla daxil olmasına şərait yaradır.

Dəniz donanmasının yeni nəsil üzvlərindən biri olan "Xocalı" digər milli istehsalımız olan gəmi-tankerlər kimi Xəzərdə və Xəzərdənkənar sularda istismar edilir. "Xocalı" gəmisinin dünya okeanlarına çıxması rəmz məna daşımaqla, Azərbaycanın dəniz nəqliyyatı gücünü, dünyada gedən müxtəlif geosiyasi böhranlara baxmayaraq, nəqliyyat-logistika bazarlarına manesiz çıxış əldə etmək imkanlarını nümayiş etdirir. Azərbaycanın dəniz donanması son bir ildə beynəlxalq sularda öz coğrafi hüdudlarını artırır, yeni tipli daha böyük gəmilərin istismara verilməsi istiqamətində dənizçilik nəqliyyatı qlobal sektorda möhkəmlənir. Bu məqsədyönlü nəqliyyat strategiyası nəticəsində 2023-cü ildə xarici sularda Azərbaycan bayrağı altında "Şuşa", "Qarabağ", "Zəngəzur" adlı 3 "Aframax" tipli tanker istismara verilib. "Xocalı" yük gəmisinin istismara verilməsi isə quru yük daşımalarında yeni dəniz seqmentnin yaranmasına səbəb olub.

Hazırda iqtisadiyyatımızın strateji cəhətdən mühüm sahələrindən biri olan dəniz nəqliyyatı yeni inkişaf mərhələsinə daxil olub. Böyükmiqyaslı neft layihələrinin, o cümlədən "Əsrin müqaviləsi"nin uğurla icrasında fəal iştirak edən Xəzər donanmasının maddi-texniki bazasının möhkəmlənməsi hazırda bu nəqliyyat sahəsinin digər qlobal seqmentlərdə iştirakını artırır.

Ölkəmizin regional və beynəlxalq tranzit dəhlizlərinə inteqrasiyasında və beynəlxalq nəqliyyat ailəsinin fəal üzvünə çevrilməsində qətiyyətli siyasət yürüdən Prezident İlham Əliyevin birbaşa tapşırıq və tövsiyələri əsasında Azərbaycanın dəniz nəqliyyatı donanması daha da müasirləşir, neft və qaz əməliyyatlarında göstərdiyi nəqliyyat xidmətlərinin çeşidini artır, müasir dəniz limanları, Bakı Gəmiqayırma Zavodu və gəmi təmiri müəssisələrinin işinin daha da təkmilləşdirilməsi dəniz donanmasına əlavə güc qatır. Son illərdə donanmanın yenilənməsi və yeni gəmilərin tikintisi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlər ASCO-nun Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılmasına, Azərbaycan ərazisindən artan tranzit yükdaşımalarında gəmilərə olan tələbatın ödənilməsinə, Xəzərdə neft-qaz layihələrinin uğurla icrasına böyük töhfə verir. Bu istiqamətdə görülən genişmiqyaslı işlər Xəzərdənkənar sularda gəmiçiliyin mövqeyinin möhkəmləndirilməsi və genişləndirilməsində də mühüm rol oynayır.

Ölkəmizdə və xaricdə inşa edilmiş yeni tipli su nəqliyyatı vasitələri ilə öz donanmasını zənginləşdirən ASCO-nun beynəlxalq limanlara çıxış coğrafiyasının genişlənməsi nəticəsində Avropa - Qafqaz - Asiya və Trans-Xəzər nəqliyyat dəhlizlərində yük və sərnişin daşınmalarında əlaqələndirici mövqeyi daha da artırır, Azərbaycan nəqliyyat və logistika mərkəzinə çevrilərək beynəlxalq daşınmalara əhəmiyyətli töhfələr verir.

Son illər ölkəmizin yerləşdiyi regionda və ətraf coğrafiyalarda baş verən mürəkkəb qlobal geosiyasi proseslərin yaratdığı risklərə rəğmən, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyininin donanması daşınmalarda öz dayanıqlı fəaliyyətini davam etdirir, tarixi Zəfərlə öz ərazilərini işğaldan azad etməsindən və 2023-cü ildə isə bütün əraziləri üzərində suverenliyini bərpa etməsindən sonra isə yaranmış yeni reallıqlar şəraitində öz nəqliyyat missiyasını müasir çağırışlara uyğun qurur. Azərbaycanın təşəbbüskarlığı ilə formalaşan yeni nəqliyyat qovşaqlarının, o cümlədən Orta Dəhlizin ən axıcı və səmərəli marşrutlarından birinə çevrilməkdə olan Zəngəzur dəhlizinin yaradılması bölgədə geniştutumlu daşımalarla bağlı əlavə potensial imkanları səfərbər etməyi aktuallaşdırır ki, vahid nəqliyyat orqanizminin bir hissəsi olan ASCO-nun da öz donanmasını bu tələbatlara uyğunlaşdırması ümdə vəzifəyə çevrilmişdir. Şirkət Xəzərin Şərq və Qərbi birləşdirən halqasının ən mühüm təminatçısı kimi çıxış edərək ölkəmizin tranzit potensialının genişlənməsində fəal təşəbbüskarlığını daha da artırmaqdadır.

Azərbaycanın yeni dəniz nəqliyyatı strategiyasına uyğun olaraq gəmiçiliyin donanmasının yenilənməsi məqsədilə daxili maliyyə imkanları və kredit resursları səfərbər edilərək yeni gəmilərin alışı və tikintisi üzrə sifarişlərin yerləşdirilməsinə nail olunmuş, milli gəmiçilik şirkəti Azərbaycan gəmiçiliyinin tarixində ilk dəfə, Xəzərdənkənar hövzələrdə böyük dedveytli - 115.000 tonluq "Aframax" tipli tankerlərlə yükdaşıma seqmentinə daxil olub. Xəzərdən kənar hövzələrdə iritutumlu quru yük gəmiləri ilə daşıma seqmentində ASCO-nun iştirakının təmin edilməsi və bu məqsədlə 40.000 tona qədər yükgötürmə qabiliyyətinə malik gəminin alınması ilə bağlı artıq Avropa Yenidənqurma və İnkişaf Bankından müvafiq kredit cəlb edilib. Bu isə Amerika da daxil olmaqla dünyanın ən uzaq su nəqliyyatı bölgələrində və hövzələrində nəhəng dedveytli Azərbaycan donanmasının möhkəmlənməsinə səbəb olacaqdır.

Azərbaycanın dəniz nəqliyyatı həm də yeni çağırışlara söykənərək hədəf prioritetləri əsasında donanmadakı "yaşlı" gəmilərin yenilənməsi, "yaşıl enerji"yə keçiddən irəli gələn bir sıra zəruri tələblərin yerinə yetirilməsi istiqamətində də formalaşır. Bu isə ölkəmizin rəqabətədavamlı və beynəlxalq standartlara uyğun dəniz nəqliyyatı xidmətləri göstərməklə çevik dəniz donanması kimi öz qüdrətini daha da artırmaq əzmini göstərir.

*E.CƏFƏRLİ*

# Növbəti qarayaxma kampaniyasına İcmadan cavab

Erməni diasporu muzdla tutduğu Luis Okamponu fasad kimi istifadə edərək Azərbaycana qarşı növbəti qarayaxma kampaniyasına başlamışdır. Kampaniya BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycanın ev sahibliyi etməsini hədəf alıb.

Bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilir.

Bəyanatda, həmçinin deyilir: "Sözügedən kampaniyanın müəllifi qismində müsahibəsində L.Okampo özünü iqlim fəalı kimi qələmə vermiş, Azərbaycana qarşı böhtan atmış, soyqırımı, müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərdə ittiham edilən separatçıların azad olunmalarını tələb etmişdir.

L.Okamponun bir tərəfdən Azərbaycana soyqırımı böhtanı atması, digər tərəfdən soyqırımı cinayətlərini törədənlərin azad olunmalarını tələb etməsi onun nə dərəcədə gülünc durumda olduğunu göstərir. Okampo həmin canilərin azad olunmasını tələb etmək əvəzinə, Ermənistanın hərbi təcavüzü nəticəsində itkin düşmüş 4000 azərbaycanlının taleyinə aydınlıq gətirməyə çalışmalıdır. Xatırladaq ki, girov götürülmüş azərbaycanlıların həmin dövrdə Ermənistanın ali hərbi rəhbərliyində olan yüksəkrütbəli zabitlərin evlərində qul kimi işlədilməsinə, azərbaycanlı əsirlərin vaxtilə işğal altındakı Azərbaycan ərazilərində və Ermənistandakı düşərgələrdə edam edilmələrinə dair təkzibolunmaz ictimai dəlillər var.

Özünü iqlim fəalı kimi göstərməyə çalışan Okampo yaxşı olardı ki, Ermənistanın Azərbaycan ərazilərini işğal edərək viran qoyması və oraya milyonlarla mina yerləşdirməsi nəticəsində ətraf mühitə sağalmaz yaralar vurması, Ermənistanda azərbaycanlılar yaşamış ərazilərin dağıdılması, dağ-mədən sənayesi ilə hava və su hövzələrinə vurduğu zərərlərlə məşğul olsun.

Qərbi Azərbaycan İcması erməni diasporunun və onun muzdlu xidmətçisi Okamponun əməllərini pisləyir, beynəlxalq ictimaiyyəti bu cür yaramaz ünsürlərlə mübarizəyə səsləyir".

# Azərbaycan yeni iqlim maliyyə hədəflərini müəyyənləşdirir

## Ölkəmizin “yaşıl enerji” potensialı qlobal aləmdə yüksək dəyərləndirilir

Braziliyanın Rio-de-Janeyro şəhərində “Böyük İyirmilik” (“G20”) ölkələrinin maliyyə nazirləri və Mərkəzi Bank rəhbərləri-



nin toplantısında qlobal iqlim çağırışlarına uyğun olaraq dünyada iqlim dəyişmələrinə qarşı mübarizənin vacibliyi və bu istiqamətdə qlobal təşəbbüslərin səmərəliliyi müzakirə olunub. Braziliyanın Maliyyə Nazirliyinin dəvəti əsasında Azərbaycanı təmsil edən maliyyə naziri Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizin qlobal iqlim dəyişikliyi üzrə davamlı maliyyə mənbələrinin təmin olunmasının vəziyyəti barədə tədbir iştirakçılarını məlumatlandırıb.

Bildirilib ki, artan iqlim böhranı ilə əlaqədar qlobal çağırışa cavab tədbirləri müvafiq həcmdə və təxirə salınmadan maliyyə təminatının yaradılmasını tələb edir. Bu öz növbəsində, 2015-ci ildə qlobal iqlim sazişini (Paris Sazişi) imzalamış dünya ölkələrinin üzərinə götürdükləri karbon qazlarının emissiyasının azaldılması öhdəliklərinin inkişaf etməkdə olan ölkələrin payına düşən hissəsinin icrası üçün inkişaf etmiş ölkələr tərəfindən illik əsasda iqlim maliyyəsinin həmin ölkələrə ayrılmasını reallaşdıran maliyyə mexanizminin yaradılmasını zəruri etsə də, xeyli müddət ötməsinə baxmayaraq onun ərsəyə gətirilməsi hələ də gündəmdədir. Bu, cari ildə Bakıda keçiriləcək COP29 Zirvə görüşü zamanı Paris Sazişinin məqsədlərinə çatmaq üçün yeni iqlim maliyyə hədəfinin müəyyənləşdirilməsini və Saziş tərəfləri arasında razılaşdırılmasını daha da aktuallaşdırır.

Ölkəmizdə iqlim dəyişmələri ilə mübarizə istiqamətində həm institusional, həm də qanunvericilik sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilməkdədir. İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasının müvafiq qərarı əsasında “Az karbonlu inkişaf üzrə Milli Strategiya”, “Milli Adaptasiya Planı” və digər önəmli sənədlərin hazırlanmasına başlanılıb.

“Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədində “Prioritet olan İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış” adlı 4-cü Prioritetin və “Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” adlı 5-ci Prioritetlərin reallaşdırılması çərçivəsində hazırda 30 illik işğaldan azad edilmiş ərazilərimizdə infrastrukturun bərpası və SMART infrastrukturun formalaşması istiqamətində mühüm işlər həyata keçirilir. Belə ki, 30 illik işğaldan azad edilmiş ərazilərimizdə “yaşıl enerji” zonasının yaradılması, “ağıllı şəhər və ağıllı kənd” layihələri işlənib hazırlanmış və artıq icra olunmaqdadır.

Nazir, ədalətli və iddialı yeni iqlim maliyyə hədəfini müəyyənləşdirmək, inkişaf etməkdə olan ölkələrin iqlim inkişafı gündəliyinin ehtiyaclarını qarşılamaq və Paris Sazişinə olan etimadı bərpa etmək üçün Bakıda keçiriləcək COP29 tədbirinin münbit meydança olacağını vurğulayıb və iqlim maliyyəsi üzrə hədəfi bu il qəbul etmək üçün “Böyük İyirmiliyin” müstəsna rola malik olduğunu qeyd edərək “G20” dövlətlərinin maliyyə nazirlərini mövqelərinin razılaşdırması üçün əlavə səylər göstərməyə çağırıb.

İnkişaf etməkdə olan ölkələrin iqlim maliyyəsi ehtiyaclarını qarşılamaq üçün əlavə maliyyə resurslarının mobilizasiyasının tələb olunduğunu vurğulayan nazir Samir Şərifov Braziliyanın “G20” sədrliyi zamanı iqlim maliyyəsi üzrə xüsusi yaradılmış işçi qrupun işinə Azərbaycanın da dəvət olunduğunu nəzərə alaraq, həmin işçi qrupun gündəliyinə çoxtərəfli inkişaf banklarının resurs bazalarının artırılması məsələsinin daxil edilməsini və buna nail olunması üçün “Böyük İyirmiliyin” maliyyə nazirlərinə xüsusi hesabatın hazırlanaraq təqdim olunmasını təklif edib.

Tədbirdə Azərbaycanın bərpa olunan enerji mənbələri potensialı barədə də məlumat verilib. “Yaşıl enerji” mənbələrindən istifadənin genişləndirilməsi ilə bağlı məqsədyönlü siyasət sayəsində Azərbaycanda “yaşıl enerji” istehsalı 2024-cü ilin birinci yarısında ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfə artaraq rekord səviyyəyə yüsəlib. Ötən ilin bu dövründə bərpa olunan enerji istehsalı 1 milyon kVt.st təşkil edibsə, artıq bu rəqəm 2 milyon kVt·stı ötüb. “Yaşıl enerji”nin payında günəş enerjisi istehsalı daha çox artıb, bu sahədə istehsal 9 dəfə böyüyərək 32,3 milyon. kVt·st-dan 286,6 milyon. kVt·st-a yüksəlib. Digər enerjinin isə 1581,1 milyon. kVt·st SES-lərin, 135 milyon. kVt·st Bərk Məişət Tullantılarının Yandırılması Zavodunun payına düşüb. Beləliklə, “yaşıl enerji” mənbələri üzrə elektrik istehsalı ötən ilin müvafiq dövrünə nisbətən 1 milyon kVt·st artıb.

Qeyd edilib ki, Azərbaycanın bərpaolunan enerji mənbələri üzrə potensialı 27000 Mvt dəyərləndirilir. Bunun 23000 Mvt-ı günəş, 3000 Mvt-I isə külək enerjisinin payına düşür. Günəş enerjisi bütün ölkə ərazisində istehsalın təşkili mümkündür. Külək enerjisi üçün isə Bakı şəhəri, Abşeron və Xızı rayonları daha əlverişli hesab olunurlar. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) 2024-cü il üzrə hesabatında qeyd olunur ki, Azərbaycan 2014-2023-cü illər ərzində bərpaolunan enerji ehtiyatlarını 567 meqavat artıraraq 1688 meqavata çatdırıb. Xüsusilə də hidroenerji ehtiyatlarının istehsalında böyük istehsal göstəriciləri qeydə alınıb, 2023-cü ildə hidroenergetika gücü 2014-cü illə müqayisədə 224 meqavat artaraq 1302 meqavata çatdırılıb. Həmin dövr ərzində külək enerjisinin gücü 2014-cü ildə mövcud olan 3 meqavatdan 67 meqavata, Günəş enerjisi isə 2 meqavatdan 282 meqavata yüksəlib. Bərpa olunan enerji mənbələrinin strukturunda su elektrik stansiyalarının payı isə 15,2 faizdən 20,3 faizə qədər artıbdır.

Digər enerji agentliklərinin qiymətləndirmələrinə əsasən, Azərbaycanda “yaşıl enerji” mənbələrinin potensialı quruda 135 QVt, dənizdə 157 QVt proqnozlaşdırılır. Dövlət başçısının vurğuladığı kimi bərpa olunan enerji mənbələrinin ən zəngin ünvanlarından biri azad olunmuş Qarabağ və Şərqi Zəngəzur bölgəsidir. Bu bölgədə su elektrik enerjisi baxımından nəhəng potensiala malikdir. Ortamüddətli inkişaf konsepsiyasına əsasən, bu ərazilər Yaşıl Enerji Zonas? elan edilib və Yaponiyanın TEPSCO şirkəti müxtəlif ssenarilər tətbiq edilməklə ərazilərin enerji tələbatı modelləri hazırlanıb. Həmin strateji yanaşmaya əsasən, Yaşıl Enerji Zonasında enerji istehsalı üçün bir neçə mənbə müəyyən edilib. Mövcud dəyərləndirmələrə əsasən, Qarabağ və Şərqi-Zəngəzurda hidroenerji, külək və günəş enerjisi, termal su mənbələrinin həcmi ölkə üzrə resursların təxminən 30-40 faizini təşkil edir. Həmin iqtisadi rayonlarda enerji gücünün həcmləri 7200 MVt-dan artıq qiymətləndirilir. Təkcə, Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olduğu proqnozlaşdırılır. Hidroenerji ehtiyatlarına görə Tərtərçay, Həkəri çayı və bu çayların qolları əsas resurs mənbələri hesab olunur. İndiyə qədər bu ərazilərdə 10 ədəd kiçik su elektrik stansiyası inşa edilərək istifadəyə verilib, digər hidrogen infrastrukturlarının yaradılması işləri davam etdirilir. Respublikamızın digər bölgələrində də Günəş və külək enerjisi ehtiyatlarının həcmi ümidvericidir. Quruda külək və günəş enerjisi üzrə resursların həcminin təxminən 40 QVt olduğu ehtimal edilir. Xəzər dənizində qiymətləndirilən 157 QVt gücündə külək və Günəş enerjisinin Azərbaycana aid payı isə bu ehtiyatların ən azı 30 faizinə bərabərdir.

Azərbaycanın “yaşıl enerji” gündəliyi ilə bağlı məsələlər Energetika Nazirliyində keçirilən tədbirdə də diqqət mərkəzində olub. Tədbirdə “yaşıl enerji” layihələri üzrə həyata keçirilən işlər, bu istiqamətdə yerli və xarici investorlarla nəzərdə tutulan planlar barədə geniş müzakirələr aparılıb. Dövlət başçısının “Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində layihələrin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” müvafiq sərəncamından irəli gələn tapşırıqların icrası istiqamətində görülən işlərə uyğun olaraq, ölkəmizin mövcud “yaşıl enerji” güclərinin artırılmasında mühüm nəticələr əldə olunub.

***E.CƏFƏRLİ***

# Qarabağda 3 gün...

## Beynəlxalq səyyahlar işğaldan azad edilmiş ərazilərdə aparılan sürətli quruculuq işlərinə heyrandırlar

İşğal azad edilmiş ərazilərimiz xarici ölkələrin səyyahlarının diqqət mərkəzindədir. Təsadüfi deyil ki, həmin yerləri görmək istəyənlərin sayı gündən-günə artır. Son 4 il ərzində 50-yə yaxın ölkədən 360-dan çox beynəlxalq səyahətçi Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər edib.

Belə səfərlər vasitəsilə dünya ictimaiyyətinin diqqətini işğaldan azad olunmuş ərazilərdə törədilən vəhşiliklərə yönəltmək mümkün olur. Səyyahlar həm də Qarabağda aparılan sürətli bərpa və quruculuq işləri ilə tanış olurlar.

**13 ölkədən 35 səyyah...**

İyulun 25-də bir qrup beynəlxalq səyyahın Qarabağa və Şərqi Zəngəzura səfəri baş tutub. Səfər dünya miqyaslı dörd nəhəng səyyah klubundan biri olan MTP (Most Traveled People) səyahət klubu tərəfindən təşkil olunub. Heyətə dünyanın ən böyük səyyahları siyahısında adı ilk onluğa düşmüş Çarlz Vilinin (Charles Veley) rəhbərliyi ilə 13 ölkədən 35 tanınmış səyyah daxildir. Bu ölkələr sırasında ABŞ, Böyük Britaniya, Almaniya, İsveçrə, Norveç, İsveç, Portuqaliya, Filippin, Polşa, Macarıstan və digərləri də var.

**Üçgünlük səfər...**

Qarabağa səfəri Füzulidən başlayan səyyahlar iyulun 25-də Şuşa-Xankəndi-Ağdam marşrutu üzrə hərəkət ediblər. Əvvəlcə Şuşa şəhər mərkəzi meydanına gələn səyyahlar Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərinə baxıblar. Qonaqlara Şuşa şəhəri, onun işğal dövründəki vəziyyəti və burada həyata keçirilən yenidənqurma işləri barədə məlumat verilib. Bildirilib ki, otuz illik işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.

Səyyahlar iyulun 26-da Şərqi Zəngəzura - Laçına, iyulun 27-də isə Zəngilan və Cəbrayıla (Xudafərin körpüsü) səfər ediblər. Səyyahlar üçgünlük səfər çərçivəsində Ermənistanın işğalı altında olduğu illərdə Qarabağ regionunda baş vermiş dağıntılarla, həmçinin rayonda aparılan bərpa işləri ilə tanış olublar.

**Hər dəfə yeni bir şeyin şahidi oluruq...**

MTP-nin rəhbəri Çarlz Veyli bildirib ki, MTP təşkilatının bir qrup səyyahı artıq dördüncü dəfədir ki, Qarabağa səfər edirlər və onlar regionda aparılan bərpa işlərinin sürətinə heyran qalıblar: “Bu, qrupumuzla Qarabağa artıq dördüncü səfərimizdir. Füzuli, Şuşa, Ağdam, Laçın və Zəngilanın hansı sürətlə bərpa olunduğunu görürük. Hər dəfə yeni bir şeyin şahidi oluruq. Qarabağa gəlmək insanların həqiqətən də çox xoşuna gəlir.

Ç.Veyli qeyd edib ki, Azərbaycanın işğaldan azad edilmiş əraziləri böyük turizm potensialına malikdir: “Hesab edirəm ki, yerli turizmin yaxşı gələcəyi var. Mən hər il buraya gələrək regionun necə dəyişdiyini görmək istəyirəm”.

**Bərpa işlərinin sürətinə heyran qaldım...**

Ukraynalı səyyah Vlad Kibol Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa işlərinin sürətinə heyran qaldığını söyləyib: “Mən artıq bir neçə dəfə Azərbaycanda olmuşam və bu ölkənin ərazi bütövlüyünü bərpa etməsinə çox sevinirəm”.

**Regionun tarixi haqqında çox şey öyrəndik...**

Səyyah qeyd edib ki, Şuşa şəhərinə səfər etməzdən əvvəl o, Füzulidə olub və tikinti işlərinin sürətinə heyran qalıb: “Ümid edirəm ki, Füzulidə tikilmiş hava limanına təkcə Azərbaycandan deyil, Türkiyə, Avropa ölkələri və digər ölkələrdən də turistlər gələcək.

Şuşa haqqında danışan səyyah şəhərin təbiətinin gözəlliyinə və memarlığına heyran qaldığını söyləyib: “Burada çox gözəl dağlar, məscidlər, zəngin tarix var”.

Amerikalı səyyah Şelvin Şah bildirib ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səyahət ona bölgənin tarixi haqqında çox şey öyrənməyə imkan verib. Səyyah mina problemi ilə bağlı fikirlərini də bölüşüb: “İstərdim ki, insanlar daha minalardan ölməsinlər, mən həmişə sülhün tərəfdarıyam. Fikrimcə, həm Azərbaycana, həm də Ermənistana sülh gətirən hər şey hər iki ölkənin maraqlarına uyğundur”.

**Şuşa mənə Qüdsü xatırladır...**

Almaniyalı səyyah Yoahim fon Löben isə Qarabağın sürətlə bərpasının heyrətamiz olduğunu bildirib. Şuşa haqqında danışan səyyah qeyd edib ki, bu şəhər ona Qüdsü xatırladır: “Şuşa bənzərsiz bir şəhərdir. Bu şəhərin azərbaycanlılar üçün əhəmiyyəti və müqəddəsliyi mənə Qüdsü xatırladır.

Səyyah, həmçinin deyib ki, Qarabağda Füzuli şəhərinin timsalında şahidi olduğu bərpa işlərinin sürəti onu heyran edib: “Sakinlər artıq oraya qayıtmağa başlayıblar və bütün infrastruktur cəmi bir-iki ilə tikilib”.

Qeyd edək ki, səyahlar Ağdamda da olublar. Turistlər işğal illərində Ermənistanın Ağdamda törətdikləri dağıntılar, davam edən bərpa və tikinti işləri ilə tanış olublar. Bundan başqa, səyyahlar bərpa edilmiş Ağdam məscidini və Şəhidlər xiyabanını ziyarət ediblər. Qonaqlara şəhərin işğal və dağıntıdan əvvəlki tarixi fotoşəkilləri də nümayiş etdirilib.

**Azərbaycan xalqını çox yaxşı anlayıram...**

Kosovolu xanım səyyan Vjollca Nivokazi Ağdamdakı səfəri ilə bağlı təəssüratlarını bölüşüb: “Bu dağıntılar, bu mənzərə mənə yad deyil. Azərbaycan xalqını çox yaxşı anlayıram”.

V. Nivokazi Ağdam Şəhidlər xiyabanında işğalçılar tərəfindən dağıdılan məzarlara baxaraq göz yaşlarını saxlaya bilməyib.









**Bakının memarlıq üslubu məndə dərin təəssürat oyatdı...**

Filippinli səyyah Camel Santos bildirib ki, bütün xarici qonaqlar işğaldan azad olunmuş ərazilərə səyahət etməklə Azərbaycan haqqında daha çox məlumat əldə edirlər: “Buradakı vəziyyəti və Azərbaycan hökumətinin səylə həyata keçirdiyi tədbirləri öz gözlərimizlə görmək tamamilə fərqli hisslərdir. Ölkənizə gəldiyim ilk andan etibarən yerli əhali, yeməklər, paytaxt Bakının memarlıq üslubu məndə dərin təəssürat oyatdı”.

***Yeganə BAYRAMOVA***

# Yeni hesabat dərc olunub

## Azərbaycan mobil internetə qoşulma üzrə...

İnformasiya-kommunikasiya texnologiyaları dövrün ən başlıca tələblərindən biri, bəlkə də birincisidir. Bu gün demək olar ki, bütün sahələrdə yeni nəsil texnologiyaların xidmətindən istifadə edilir. Dövlət strukturları, vətəndaş cəmiyyəti institutları, iqtisadi və sosial sahələr, elm və təhsil, mədəniyyət və digər sahələr informasiya-kommunikasiya texnologiylarının təsir dairəsindədir. Hazırda demək olar ki, hər kəs internet istifadəçisidir. İnternet hər kəsə informasiyaya rahat çıxış imkanı yaradır və indiki dövrdə demək olar ki, əlçatmaz informasiya yoxdur. Bu, yeni dövrün reallıqlarıdır.

Azərbaycanda da İKT-nın inkişafına ciddi diqqət yetilir. Təbii ki, bu sahədə hələ də həllini gözləyən məsələlər var. Nəzərə almaq vacibdir ki, 20-ci əsrin sonlardan başlayaraq informasiya və kommunikasiya texnologiyaları cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən biri olub. Dünya ilə ayaqlaşmaq üçün bu sahənin inkişaf etidirilməsi zəruridir. Ona görə də bu sahədə mühüm işlərin görülməsi üçün dövlətimiz lazım olan bütün tədbirləri görməkdədir.

**Ölkəmizdə internet azadlığı təmin olunur...**

Bu gün İKT sahəsində əsas məqsəd beynəlxalq standartlara cavab verəcək inkişafa nail olmaqdır. Bu, özündə İKT-nin tətbiqi və elektron xidmətlər, həmçinin informasiya təhlükəsizliyi sahəsində fəaliyyətin genişləndirilməsini ehtiva edir. Sevindirici haldır ki, informasiyanın əldə olunması, informasiya azadlığı, məlumatların maneəsiz olaraq yayılması imkanları ölkəmizdə ən yüksək səviyyədə təmin olunur. Ölkədə informasiya, internet azadlığının təmin olunması ilə bağlı çox mühüm işlər həyata keçirilir.

**Beynəlxalq göstəricilərdə irəliləyirik...**

Bundan başqa, bu günlərdə GSMA 2023-cü il üçün “Mobile Connectivity Index” hesabatını dərc edib. Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib. Sənəd 173 ölkə üzrə dünya əhalisinin 99%-nin mobil internetə qoşulması üzrə göstəriciləri əhatə edir.

Hesabata görə, ölkəmiz ötən il mobil internetə qoşulma üzrə 69,33 indeks xalı toplayıb. Bu da 2022-ci illə müqayisədə artım deməkdir.

**Yanlışlıq aradan qaldırıldı...**

Həmçinin müəyyən edilib ki, qurum tərəfindən 2022-ci il üzrə Azərbaycanla bağlı göstəricilərin hesablanmasında yanlışlığa yol verilib. Nəticədə həmin il üçün ölkəmizin indeks xalı 61,2 müəyyən edilib.

İnformasiya-Kommunikasiya Texnologiyaları Agentliyinin (İKTA) rəsmi müraciəti əsasında hesablamalar yenidən aparılaraq yanlışlıq aradan qaldırılıb. Beləliklə, Azərbaycanın 2022-ci il üzrə nəticələri 66,63 xala yüksəldilib.




Eyni zamanda, 2023-cü ilin göstəricilərinə görə, Azərbaycan “Mobile Connectivity Index” üzrə “Keçid” (Transitioner) qrupundan, “İnkişaf etmiş” (Advanced) qrupuna daxil edilib.

**Yeni provayderlər uçota alındı**

Bu günlərdə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İnformasiya-Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA) ümumilikdə 6 yeni telekommunikasiya operator və provayderini uçota alıb. Bu barədə İKTA-dan bildirilib.

Belə ki, “Aznet technologies” QSC, “Alnet”, “Profib”, “Volt internet”, “Sfera net” və “Caspian İT services” MMC-lərin müraciəti əsasında onların uçota alınması həyata keçirilib. Həmçinin “Proksi fiber” və “Avirtel” MMC-lərin müraciətləri əsasında operator və internet provayder kimi fəaliyyətlərini dayandırmaları səbəbindən uçotları ləğv edilib. Bununla da uçota alınan telekommunikasiya operator və provayderlərinin sayı 163-ə çatıb.

**Bu provayderlər uçota alınmasa...**

İKTA bir daha bəyan edir ki, uçota durmayan operator və provayderlər, o cümlədən host provayderlər “Elektron hökumət” portalında autentifikasiyadan keçərək uçota durmaq üçün ərizə göndərməlidirlər. Uçota durma qaydalarının pozulması İnzibati Xətalar Məcəlləsinin 370-1-ci maddəsinə əsasən inzibati məsuliyyətə səbəb olur.

Bidirilib ki, uçotaalınma bu sahənin hesabatlılıq səviyyəsini, eləcə də tənzimləmə imkanlarını genişləndirir. Eləcə də genişzolaqlı internetə çıxış səviyyəsinin maksimum həddə çatdırılması üçün inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında istifadə olunur. Həmçinin istehlakçılar və tənzimlənən subyektlər arasında münasibətlərin inkişaf etdirilməsi, xidmət bazarlarının təhlil edilməsi, onların formalaşdırılması və şəffaflığın təmin edilməsi istiqamətində mühüm rol oynayır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

Qeyd edək ki, İnformasiya-Kommunikasiya Texnologiyaları Agentliyi ölkədə informasiya-kommunikasiya texnologiyaları və rabitə (telekommunikasiya və poçt) sahələrində tənzimləmə və nəzarəti, eləcə də radiospektr idarəçiliyini həyata keçirir.

***Yeganə BAYRAMOVA***

# Türkiyə terrorla mübarizəni gücləndirir

## Əsas hədəflərdən biri Suriya ərazisinin terrorçulardan təmizlənməsidir

Ankara Suriya ərazisinin terrorçulardan təmizlənməsinin tərəfdarıdır. Bu barədə cümə axşamı Ankarada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə Türkiyə Milli Təhlükəsizlik Şurasının (MTŞ) iclasının yekunlarına dair açıqlanan bəyanatda deyilir. Bildirilib ki, bu, ilk növbədə Suriyanın maraqlarına cavab verir və ölkənin gələcək inkişafına zəmanət verir. MTŞ-də Türkiyənin Suriyada "genişmiqyaslı ictimai harmoniya" mühitinin formalaşmasına bundan sonra da töhfələr verməyə hazır olduğu vurğulanıb.



### Milli Təhlükəsizlik Şurasının iclasında...

Bəyanatda Türkiyə və Suriya xalqları arasında gərginliyin artmasının yolverilməzliyi, həmçinin İraq və Suriya da daxil olmaqla qonşu ölkələrin ərazi bütövlüyü və suverenliyinə hörmət məsələsində Ankaranın mövqeyinin dəyişməzliyi göstərilir.

Ümumiyyətlə, Türkiyə regionda, o cümlədən Yaxın Şərqdə sabitliyin və təhlükəsizliyin təmin olunması üçün mühüm təşəbbüslərlə çıxış edir. Uzun illərdir ki, Suriya böhranı da region üçün təhdid olduğundan həmişə Ankara bu problemin tezliklə həllinin tərəfdarıdır. Suriyada qeyri-sabitlik, eləcə də PKK/YPG terrorçularının mövcudluğu Türkiyənin təhlükəsizliyi üçün problem olaraq qalır. Ona görə də, Ankara davamlı olaraq İraqla yanaşı, Suriya ərazisində də antiterror tədbirləri həyata keçirir. Bunun nəticəsində də xeyli sayda terrorçu zərərsizləşdirilib.

Bununla belə rəsmi Ankara problemin tezliklə həll olunmasına səy göstərir. Belə bir şəraitdə iki ölkə arasında münasibətlərdə müsbət dəyişikliklərin baş verməsi zərurəti yaranıb. Təsadüfi deyil ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankara ilə Dəməşq arasında siyasi əlaqələrin bərpasını istisna etməyib. Ötən ay Türkiyə lideri jurnalistlərə açıqlamasında iki qonşu ölkə arasında dialoqun bərpasının qarşısında heç bir maneənin olmadığını bildirərək demişdi: "Suriya ilə əlaqələrin qurulması üçün hər hansı bir məhdudiyyət yoxdur. Biz keçmişdə olduğu kimi, birgə hərəkət etməyə, əlaqələri inkişaf etdirməyə hazırıq. Türkiyə Suriyanın daxili işlərinə müdaxilə etmək niyyətində deyil. Bu cür məqsəd heç vaxt qoyulmayıb". Ərdoğan Suriya xalqını qardaş xalq adlandırıb, Türkiyə ilə Suriya arasında münasibətlərin keçmişdə fəal şəkildə inkişaf etdiyini, iki ölkə liderlərinin isə ikitərəfli görüşlər keçirdiklərini xatırladıb. "Bildiyiniz kimi, keçmişdə biz ailə üzvlərimizin iştirakı ilə cənab Əsədlə danışıqlar aparmışıq. Yəni, dialoqdan qəti şəkildə imtina etmək düzgün deyil, təmaslar mümkündür", - deyə Türkiyə Prezidenti vurğulamışdı.

### Bəzi qüvvələr terrorla mübarizəyə mane olmağa çalışır

Türkiyə ilə Suriya arasında terrorçuluğa qarşı birgə əməkdaşlığın gücləndirilməsi də nəzərdə tutulur. Birgə əməkdaşlıq çərçivəsində bu istiqamətdə müvafiq addımların atılması planlaşdırılırdı. Lakin bir sıra ekspertlər hesab edirlər ki, Türkiyə və Suriya arasında artan əməkdaşlıq ABŞ-nin regiondakı təsir imkanlarını zəiflədəcək. Belə bir şəraitdə üçüncü qüvvələr Türkiyə və Suriya arasında yaxınlaşmanın qarşısını almağa çalışır. Suriyanın şimalında türk hərbçilərə qarşı hücumların edilməsi də bunun göstəricisidir. Son vaxtlar ABŞ-ın Suriyanın şimalındakı PKK, YPG terror qruplaşmalarına hərbi texnika, o cümlədən hava hücumundan müdafiə sistemləri göndərməsinə dair məlumat yayılır. Türkiyə Milli Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Zeki Aktürk iyulun 25-də keçirdiyi brifinqdə bu məsələyə münasibət bildirib. O deyib ki, Türkiyə Silahlı Qüvvələri prosesləri yaxından izləyir: "ABŞ regiondakı bazalarının havadan müdafiəsini təmin etmək məqsədilə əraziyə "Avenger Stinger" havadan müdafiə sistemləri göndərib. Müttəfiqimiz ABŞ-dən gözləntimiz İŞİD-lə mübarizə bəhanəsi ilə terror təşkilatı PKK/YPG-yə verdiyi bütün dəstəyi dayandırmasıdır. Gözləntimiz odur ki, ABŞ bir terror təşkilatı ilə əməkdaşlıqla başqa birinə qarşı mübarizə aparılmasının doğru olmadığını anlasın və terrorla mübarizəmizə səmimi dəstək versin". Baş verənlərə rəğmən perspektivdə Türkiyənin antiterror əməliyyatlarını gücləndirməsi gözləniləndir. Ankara bu istiqamətdə tərəfdaşlarla əməkdaşlığı da genişləndirə bilər.

Onu da qeyd edək ki, Milli Təhlükəsizlik Şurasının iclasında digər məsələlər də müzakirə olunub. Yekun bəyanatda Ankaranın bölgədə, o cümlədən Egey və Aralıq dənizlərində Türkiyənin hüquq və maraqlarını müdafiə etməyə davam etmək əzminə diqqət çəkilir. "Türkiyə siyasətində konstruktivlik və dialoq istəyi heç də hər hansı güzəşt və maraqlardan uzaqlaşma imkanını nəzərdə tutmur. Bu, Şimali Kipr Türk Cümhuriyyətinin beynəlxalq aləmdə tanınmasına nail olmaq istəyinə də aiddir", - deyə sənəddə qeyd olunub. Milli Təhlükəsizlik Şurasında həmçinin bəyan edilib ki, Türkiyə Ukraynada ədalətli və uzunmüddətli sülhün tərəfdarıdır.

*N.BAYRAMLI*

# Olimpiada: Fransanın içi və çölü

Bu günlərdə dünyanın nəzərləri Fransaya, gözəlliklər şəhəri kimi ad çıxarmış Parisə dikilib. Bu da səbəbsiz deyil. Dünən Parisdə 33-cü Yay Olimpiya Oyunlarının rəsmi açılış mərasimi keçirilib. Azərbaycanın 15 idman növü üzrə 48 idmançı ilə təmsil olunacağı Oyunlar avqustun 11-dək davam edəcək.

Olimpiya Oynlarına ev sahibliyi etmək ölkələr üçün bir şansdır. Tarixən Olimpiya Oyunları gərgin idman mübarizəsi şəraitində keçsə də, bir bayram ovqatı yaradıb. Ayrı-ayrı ölkələrin, qitələrin təmsilçiləri bir araya gəliblər, sevinclərini bölüşüblər, qayğılardan uzaq olmağa çalışıblar. Bütövlükdə Olimpiya ənənəsi bəşəriyyət üçün çox qiymətli bir irsdir.

Ancaq təəssüf ki, bu sözləri 33-cü Yay Olimpiya Oyunları barədə demək mümkün deyil. Yelisey Sarayından hər nə qədər Oyunlara hazırlıqla bağlı nikbin açıqlamalar gəlsə də, Parisdə Olimpiada ruhu çox sönükdür. Bu gün Fransa hakimiyyətinin qayğıları yalnız Oyunların keçirilməsi ilə bağlı deyil. İqtidar komandası həm də ölkə boyunca artan narazılıqların, etirazlar dalğasının cilovlanması qayğısına qalmaq məcburiyyətindədir. Bir sözlə, Olimpiada Fransanın içini və çölünü dünyaya göstərmək üçün bir fürsətə çevrilib.

## Olimpiya kəndində qida çatışmazlığı

Fransa Sen-Deni və Sent-Uen adaları arasında yerləşən Olimpiya kəndinin qapılarını bir neçə gün bundan əvvəl Olimpiadaya qatılan ölkələrin heyətlərinin üzünə açıb. Verilən məlumatlara görə, 52 hektar ərazisi olan bu sahə 9000 idmançı da daxil olmaqla 14500 insanı qarşılamaq imkanına malikdir.

Planetin ən böyük idman yarışmasının rəsmi açılış mərasimi ilk dəfə stadiondan kənarda - Sena çayının ətrafında baş tutub. Sena çayı boyunca 6 kilometrlik marşrutda 12 bədii səhnə, Fransanın irsi, Paris, şəhərin abidələri və marşrut boyunca körpüləri nümayiş etdirilib. Bundan başqa, 10 min 500 idmançı Parisin mərkəzindən qayıqlarla Sena çayı boyunca üzməyin həyəcanını yaşayıblar.

Makron Olimpiada üçün təntənəli açılış mərasimi düzənləməklə, əslində, komandasının monolitliyini, gücünü və legitimliyini təsdiqləmək məqsədi güdürdü. Ancaq alınan xəbərlərdən bir daha o qənaət hasil olur ki, Olimpiya Oyunları siyasi məqsədlərdən uzaq tutulmalıdır. Verilən xəbərlərdə bildirilir ki, Parisdə baş tutan təntənəli açılış mərasimindən daha çox Olimpiya kəndində yaşananlar müzakirələrin mərkəzində dayanıb. Vurğulanır ki, belə davam etsə, 33-cü Yay Olimpiya Oyunları Makronun antireklamına çevriləcək.

Məsələn, Böyük Britaniyadan olan idmançılar Parisdəki Olimpiya kəndində qida çatışmazlığından və keyfiyyətsiz yeməklərdən şikayətləniblər. Bu barədə Britaniya Olimpiya Assosiasiyasının rəhbəri Endi Enson "Daily Mail" nəşrinə bildirib. Vurğulanıb ki, idmançılar Olimpiya kəndindəki əsas restorandan narazıdırlar. "İaşə şirkəti yeməklərin çatdırılmasını sürətləndirmək üçün çalışır. Müəyyən qidalar kifayət deyil: yumurta, toyuq, müəyyən karbohidratlar. Bundan əlavə, idmançılara çiy ət verilir. Halbuki yeməyin keyfiyyəti vacibdir. İdmançılarımız Klişidəki restoranımızda yemək yeməyə üstünlük verdilər", - deyə Enson vurğulayıb.

## Tənqid hədəfinə çevrilən karton çarpayılar

"Paris-2024" Olimpiya kəndinə gələn atletlər karton çarpayıları tənqid obyektinə çeviriblər. İdmançılar onlara verilən çarpayılar haqqında sosial şəbəkələrdə paylaşım ediblər. "Karton çarpayıda ilk gecə. Kürəyimi itirirəm", - deyə su polosu üzrə avstraliyalı çempion Tilly Kearns "Instagram" səhifəsində paylaşdığı videoda deyib. "Çarpayılar həqiqətən də kartondandır, çox sərtdirlər", - deyə qısa məsafəyə qaçış üzrə idmançı Whitney Tie paylaşıb. "Zarafat deyil, gördüyünüz kimi Olimpiya çarpayısı kartondandır", - deyə fransız cüdoçu Julyan Brular da təəccübünü gizlətməyib. Reqbi oyunçusu Libbi Janse van Rensburg çarpayılarla bağlı fikrini dedikdən sonra çarpayıların dayanıqlığını yoxlamaq üçün onun üzərinə tullanıb. Bildirilir ki, 26 min ədəd olan bu çarpayıların hamısı kağız və ya plastik materialdan hazırlanıb.

Ancaq Olimpiya kəndində təkcə çarpayılar gülüş obyekti olmayıb. Otaqlarda televizorların olmaması da idmançıları məyus edib. Həmçinin müxtəlif ölkələrdən gəlmiş idmançılar "TikTok" sosial şəbəkəsində yeməklərin ədviyyatsız, bir növ dadsız olmasına təəssüfləniblər. İdmançılar paltarlarının yuyulmasında da problemlərlə üzləşdiklərini bildirirlər. Ancaq bəzi "müsbət" baxışı olanlar da var. Məsələn, dekorasiya ilə bağlı. "Hər komanda öz binasını bəzəyə bilər",- deyə kanoe slalom üzrə çempion Cessika Foks bunun guya sevindirici olduğunu paylaşıb.



## Nəqliyyat infrastrukturunun iflic vəziyyətə düşməsi

Bu günlərdə Fransadan Olimpiada ilə bağlı alınan xəbərlər sırasında nəqliyyat infrastrukturunun iflic vəziyyətə düşməsini özündə ehtiva edən məlumatlar da yer alır. Xəbər verildiyi kimi, iyulun 26-da gecə saat 1-dən 5:30-dək Fransa Milli Dəmir Yolları Şirkətinin (SNCF) sürət qatarları (TGV) şəbəkəsinə qarşı beş təxribat cəhdi qeydə alınıb, onlardan yalnız birinin qarşısı alınıb. Nəticədə 800 min sərnişin qatarlarının gecikməsi və ya reyslərin ləğv edilməsi ilə üzləşib.

Təxribatlar planlı şəkildə və eyni vaxtda həyata keçirilib. Hadisələr zamanı sürücülərin təhlükəsizliyi və açarların işləməsi üçün vacib olan fiber-optik kabellərin kəsilməsi, sonradan yandırılması baş verib. Yerli mətbuat bu hadisələrin ictimaiyyətə aid məkanlarda baş verdiyini qeyd edərək, bu işdə prosesi bilən şəxsin və şəxslərin əli olduğunu ehtimal edib.

Paris prokurorluğu Fransa Milli Dəmir Yolları Şirkətinin (SNCF) bütün saytlarına qəsdən ziyan vurulması ilə bağlı istintaq işi açıb. İstintaq bir neçə ittihamı, eləcə də xalqın əsas maraqlarına ziyan vura biləcək əmlakın korlanması və məlumatların avtomatlaşdırılmış sisteminə hücumu əhatə edir.

Ölkədə Atlantik, Şərq və Şimal istiqamətlərində sürət qatarlarının hərəkəti dayanıb. SNCF səyahətçilərə səfərlərini təxirə salmağı və stansiyalara getməməyi tövsiyə edib. Bildirilib ki, bütün biletlər dəyişdiriləcək və geri qaytarılacaq. Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax Fransa hakimiyyətinə 180 beynəlxalq kəşfiyyat xidmətinin kömək etdiyini vurğulayıb. Bununla belə, Olimpiya Oyunlarının açılış mərasiminə bir neçə saat qalmış baş verən bu hücum Parisə gələn çox sayda səyahətçinin və turistin səfərini çətinləşdirib.

Eyni zamanda, Avropada sərnişinlər üçün yüksəksürətli qatar xidmətləri göstərən "Eurostar" şirkəti London və Paris arasında bir neçə reysin təxirə salındığını bildirib. Bu barədə şirkətin məlumatında deyilir. "Fransada vandalizm aktları Paris və Lill arasında yüksəksürətli xəttin fəaliyyətinə təsir göstərib. Parisə gələn və Parisdən gedən bütün sürətli qatarlar bu gün (dünən - red.) - iyulun 26-da klassik xəttə yönləndiriləcək. Bu, səyahət vaxtını bir qədər artıracaq. Müddət təxminən bir saat yarımdır", - deyə məlumatda bildirilir.

Bu arada Parisdə ətraf mühit fəalları Olimpiya Oyunlarına qarşı stikerlər vurduqları üçün nəzarətə götürülüblər. "Le Parisien" nəşrinin məlumatına görə, stikerlərdə "Olimpiada əyləncəli deyil", "Fransaya ikiqat hava axını" və "Parisdə sosial təmizləmə: 12 min 500 nəfərin qovulması" sözləri yazılıb. Fəalları dəmir yolu avadanlıqlarına ziyan vurmaqda ittiham ediblər və onları 750 avroya qədər cərimə gözləyir.

## Hava limanında partlayış xəbərdarlığı

Parisdə Olimpiadanın açılış günündə İsveçrə-Fransa sərhədində yerləşən Basel-Müluz-Frayburg Euroairport partlayış xəbərdarlığına görə boşaldılıb. Bildirilir ki, evakuasiya Olimpiya Oyunlarının açılış mərasimi öncəsi təxribat nəticəsində Fransanın dəmir yolu şəbəkəsinin işini dayandırdıqdan bir neçə saat sonra baş verib.

"Təhlükəsizlik səbəbindən terminal boşaldılmalı idi və hazırda o bağlıdır", - deyə Elzasın cənubunda yerləşən Basel-Müluz-Frayburg Euroairport öz saytında yazıb. Bir neçə dəqiqə sonra Fransa polisi partlayış xəbərdarlığının mövcud olduğunu təsdiqləyib.

Yay Olimpiya Oyunlarının açılışı günü Fransaya qonşu olan digər ölkələrin dəmir yolu xətlərinin fəaliyyətində də fasilələr yaranıb. Onlar, həmçinin La-Manş tuneli vasitəsilə Paris və Londonu birləşdirən yüksəksürətli marşruta da təsir göstəriblər. Artıq təmir işlərinin aparılmasına baxmayaraq, qatarların hərəkət cədvəlində ən azı həftəsonuna qədər gecikmələr gözlənilir.

## Parisdə evsizlərin üsyanı

Olimpiya Oyunları bir daha göstərdi ki, Paris gözəlliklər şəhəri olmaqla bərabər, həm də səfillər, evsiz-eşiksizlər şəhəridir. Senadan, Eyfel qülləsindən şəhərin dəbdəbəli, cəlbedici mənzərəsi açılsa da, şəhərin qaranlıq, dar küçələrində zibilliklərdə özlərinə qida axtaranlar reallığı da var.

Olimpiya Oyunlarının açılış mərasiminə iki gün qalmış paytaxtın 18-ci dairəsinin bələdiyyə binası qarşısında daha bir reallıq nümayiş olunub. Belə ki, onlarla evsiz ailə ağır vəziyyətlərinə etiraz olaraq 18-ci rayonun meriyasının qarşısına toplaşıb. Bəziləri gecəni də meriyanın qarşısındakı küçədə keçirib.

Təqribən 300 insan bu acınacaqlı vəziyyətə dözmədiklərini bildirir. Üsyançılar dövlət orqanlarına etiraz etmək üçün bir araya gəlmiş Afrika əsilli miqrantlardır. Onlar getdikcə daha ağır yoxsulluq səviyyəsinə düşmələrinin səbəblərindən birinin Olimpiya Oyunları olduğunu deyirlər. Assosiasiyaların fikrincə, evsizlər üçün ayrılmış 3000 yerin Olimpiya gələn turistlərə kirayə verilməsi vəziyyəti daha da ağırlaşdırıb. Etirazçılardan bəziləri xəstəxanalardan yarımçıq çıxarıldıqlarını bildiriblər.

Bütövlükdə, 80 təşkilat Olimpiya Oyunlarına etiraz etmək məqsədilə Respublika meydanına toplaşıb. Etirazçılar əllərində "Olimpiya Oyunları sosial təmizləmə: 12500 insan qovulub" şüarı yazılmış plakatlar tutublar. Nümayişçilər Olimpiya Oyunlarının sakinlər, işçilər üçün olmadığını bəyan ediblər. Bildiriblər ki, ölkənin düşdüyü sosial və ekoloji böhranı görməzdən gəlib, beynəlxalq idman tədbirləri təşkil etmək olmaz.

"Solidaires" həmkarlar ittifaqı mətbuata açıqlamasında işçilərin həddindən artıq istismarını, tətil etmək hüququna təhdidləri, ətraf mühitin məhv edilməsini, mənzil itkisini və evsizlərin məcburi köçürülməsini - sosial təmizlənməni pisləyiblər.

Assosiasiyalar Olimpiya Oyunları ərəfəsində Paris ətrafında əsasən miqrantların məskunlaşdığı qeyri-qanuni düşərgələrin sökülməsinin sürətləndirildiyini bildiriblər."Watizat" assosiasiyasının koordinatoru küçələrdə yaşayan evsiz insanların qeyri-insani şəkildə təxliyə edilmələrinin onların psixi durumuna ciddi təsir etdiyini bildirib.

*MÜBARİZ*

# Tramp Ukrayna böhranını həll edə biləcəkmi?

## O, Zelenski ilə telefon söhbətində tərəfləri sülhə çağırıb

Son günlər Rusiya-Ukrayna müharibəsini dayandırmaq üçün sülh danışıqlarına başlamaq çağırışları artıb. Xüsusilə, bu çağırışlar ABŞ-da Donald Trampın yenidən dövlət başçısı seçilmək şansının güclənməsi fonunda baş verir. İndiyə kimi Ukraynanın barışmaz mövqeyindən çıxış edən prezident Volodimir Zelenski artıq sülh danışıqlarını istisna etmir. Belə ki, Zelenski Rusiya prezidenti Vladimir Putinlə danışıqların mümkünlüyünə eyham vurur. O, Ukraynada bu cür danışıqları qadağan edən hazırkı fərmana baxmayaraq, Putinlə dialoqa getməyə razı olduğunu nümayiş etdirib. "Rusiya ikinci sülh sammitinə dair plan haqqında danışmağa hazırdırsa, o zaman biz tərəfdaşlarımız və Rusiyanın nümayəndələri ilə danışmağa hazır olacağıq", - deyə Zelenski bildirib. O, həmçinin vurğulayıb ki, Putinin özünün və ya başqasının danışıqlar aparmasının fərqi yoxdur, əsas məsələ sülhə nail olmaqdır. Ukrayna xarici işlər nazirinin Çinə səfər etməsi də sülh danışıqları imkanlarının gündəmə gəldiyini deməyə əsas verir.

### Tərəflər telefon danışığının nəticəsindən razıdır

Yəqin, ABŞ-da Donald Trampın yenidən hakimiyyətə gəlmək şansının çox olması rəsmi Kiyevi müəyyən addımlar atmağa vadar edib. Bir neçə gün öncə Trampla Zelenski arasında telefon danışığının gerçəkləşməsi də bu kontekstdə təsadüfi sayıla bilməz. Bu barədə D.Tramp özünün "Truth Social" səhifəsində yazıb. "Prezident Zelenski ilə çox yaxşı telefon danışığı oldu. ABŞ-ın növbəti prezidenti olaraq mən dünyaya sülh gətirəcəyəm. Çoxlu sayda insanın həlak olduğu və saysız-hesabsız günahsız ailənin didərgin düşdüyü bu müharibəyə son qoyacağam. Hər iki tərəf bir araya gələrək zorakılığa son qoyan razılaşmanı müzakirə edə bilər", - deyə keçmiş dövlət başçısı bildirib. Zelenski isə elefon söhbəti barədə teleqram kanalında yazıb ki, "Trampla ədalətli sülhün əldə olunması və bunun davamlı olması məsələsini müzakirə etdik".



Daha sonra "Bloomberg" agentliyinə müsahibəsində də ABŞ prezidentliyinə namizəd Donald Tramp Ukraynadakı müharibə ilə bağlı fikirlərini bildirib və müharibəni bitirmək planı çərçivəsində Rusiyaya qarşı sanksiyaların yumşaldılmasının mümkünlüyünü açıqlayıb. Tramp hesab edir ki, sanksiyalar çox vaxt ABŞ-ın təcrid olunmasına gətirib çıxarır və o, sanksiyaların tərəfdarı deyil. İrana qarşı sanksiyaları faydalı hesab etsə də, prezidentliyə namizəd düşünür ki, o vaxt da onların zərurəti mübahisəli idi. Tramp Rusiya Rrezidenti Vladimir Putinlə münasibətlərini də xatırladıb və vurğulayıb ki, onun prezidentliyi dövründə müharibə təhlükəsi olmayıb və Rusiya heç vaxt Ukraynanı işğal etməyəcəkdi. O, belə bir addımın yolverilməzliyi ilə bağlı Putinə şəxsən xəbərdarlıq etdiyini bildirib.

### Tramp Baydeni günahlandırıb...

Trampın fikrincə, Ukrayna münaqişəsi zamanı dünya daha təhlükəli olub və buna görə ABŞ-ın hazırkı prezidenti Co Baydeni günahlandırıb. Tramp hesab edir ki, Bayden öz hərəkətləri ilə Rusiya və Çinin yaxınlaşmasına töhfə verib və hazırda iki ölkə sıx ittifaqda fəaliyyət göstərir. Tramp dəfələrlə bəyan edib ki, dövlət başçısı seçilərsə, 24 saat ərzində və ya andiçmə mərasiminə qədər Ukraynada müharibəni dayandıra bilər. "Bloomberg" isə yazır ki, onun planına Ukraynanı hərbi yardımı kəsmək təhlükəsi altında Moskva ilə danışıqlara məcbur etmək daxildir. Digər tərəfdən, Tramp Ukraynaya silah tədarükünü artıracağı ilə hədələməklə Rusiyanı danışıqlar masasına oturtmaq niyyətindədir. Təsadüfi deyil ki, ABŞ-ın sabiq dövlət katibi və Mərkəzi Kəşfiyyat İdarəsinin sabiq direktoru Mayk Pompeo da "The Wall Street Journal" nəşrinə müsahibəsində Donald Trampın seçkilərdə qalib gələcəyi təqdirdə Kiyevə silah tədarükünü artırmaq üçün 500 milyard dollarlıq Lend-liz proqramını təsdiqləyə biləcəyini deyib. Onun sözlərinə görə, bu proqram Kiyevə Amerika silahlarını əldə etmək üçün lazımi qədər borc almağa imkan verəcək. Eyni zamanda, Donald Trampın Ukrayna ilə bağlı sülh planı həm də Kiyevin ala və istifadə edə biləcəyi silah növlərinə qoyulan bütün məhdudiyyətləri aradan qaldırmağa kömək edəcək. Bu da öz növbəsində Amerikanın müdafiə sənayesinin güclənməsinə gətirib çıxaracaq.

### Kiyevin başqa çıxış yolu varmı?

Qeyd edək ki, II Dünya müharibəsi illərində ABŞ-ın qəbul etdiyi Lend-liz aktı Vaşinqtona müttəfiqlərini pulsuz silah-sursat, avadanlıq, ərzaq, tibbi ləvazimatlar və dərmanlar, strateji xammal, o cümlədən neft məhsulları ilə təmin etməyə icazə verib. Hazırda bu məsələnin yenidən gündəmə gəlməsi isə Trampın Ukrayna ilə planları ilə bağlıdır. Ukraynanın xarici işlər naziri Dmitro Kuleba isə TCH telekanalına müsahibəsində deyib ki, Rusiya ilə sülh danışıqlarının aparılması məsələsində heç kim Ukraynaya təzyiq göstərə bilməz: "Heç kim bizi danışıqlara məcbur edə bilməyəcək və bu, mümkün deyil. Hər hansı qərarı biz özümüz qəbul edəcəyik". Onun sözlərinə görə, Ukraynaya silah və maliyyə yardımı edən Qərb tərəfdaşları da Kiyevə bu məsələdə təzyiq göstərmirlər. Onlar həmişə açıq şəkildə deyirlər ki, kiminlə, nə vaxt və hansı formatda danışıqlar aparacağına Ukrayna özü qərar verəcək. Lakin Qərb dövlətlərinin, xüsusilə ABŞ-ın Kiyevə silah yardımını dayandırması isə Ukraynanın qısa müddətdə məğlubiyyəti ilə nəticələnə bilər. Bu, Ukraynanın XİN başçısına da yaxşı məlumdur. Ona görə də, Tramp seçkilərdə qalib gələcəyi təqdirdə Kiyev ABŞ-ın sülh planını qəbul etməli olacaq.

*N.BAYRAMLI*

# Türkiyə və Rusiya XİN başçıları nələri müzakirə ediblər?

Türkiyənin xarici işlər naziri (XİN) Hakan Fidan Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının (ASEAN) XİN başçılarının 57-ci Toplantısı çərçivəsində Türkiyə-ASEAN Sektor üzrə Dialoq Tərəfdaşlığı Toplantısında iştirak etmək məqsədilə Laosun paytaxtı Vientyanda səfərdədir.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində ikitərəfli görüşlər keçirən Hakan Fidan Rusiyanın xarici işlər naziri Sergey Lavrovla da həmsöhbət olub.

Görüş zamanı ikitərəfli əlaqələr, iqtisadiyyat və energetika sahələrində əməkdaşlıq məsələləri müzakirə olunub.

Nazirlərin bölgədə davam edən Rusiya-Ukrayna və İsrail-Fələstin qarşıdurmaları, Suriyadakı son vəziyyət, eləcə də digər regional məsələlər ətrafında da fikir mübadiləsi apardıqları bildirilir.



# Obama Harrisi dəstəkləyir

ABŞ-ın sabiq dövlət başçısı Barak Obama və onun həyat yoldaşı Mişel noyabrın 5-də keçiriləcək prezident seçkilərində Kamala Harrisin namizədliyini dəstəkləyib.

AZƏRTAC xəbər verir ki, Barak və Mişel Obamalar mövqelərini özlərinin sosial media hesablarında bildiriblər.

"Mişel və mən dostumuz Kamala Harrisə zəng edərək əla prezident olacağını və onu tam dəstəklədiyimizi dedik. Seçkilərdə onun qalib gəlməsi üçün əlimizdən gələni edəcəyik", - deyə Barak Obama yazıb.

Mişel Obama isə öz növbəsində pozitivliyi, yumor hissi və insanlara ümid vermək bacarığına görə Kamala Harrisin Demokratlar partiyasından dövlət başçısı postuna namizədliyini dəstəklədiyini vurğulayıb.

Qeyd edək ki, iyulun 21-də ABŞ-ın hazırkı Prezidenti Cozef Bayden dövlət başçısı postuna yenidən seçilmək istəmədiyini elan edib və vitse-prezident Kamala Harrisin namizədliyini dəstəklədiyini bildirib.



# BMT rəhbəri çağırış edib

BMT-nin Baş katibi Antonio Quterreş həddindən artıq isti havanın təsirlərinə qarşı qlobal tədbirlər görməyə çağırır.

AZƏRTAC BMT-nin saytına istinadla xəbər verir ki, bununla bağlı Antonio Quterreş mətbuata açıqlama verib. O bildirib ki, milyardlarla insan həddindən artıq isti hava ilə üz-üzədir. Getdikcə temperatur qalxaraq demək olar ki, bütün dünyada 50 dərəcə Selsidən çox olur.

Həddindən artıq temperaturun təsirlərindən danışan Quterreş insanların istidən xəstəxanalara düşməsini və ölüm hallarının artmasını buna nümunə olaraq qeyd edib. BMT rəhbəri ABŞ-da temperatur rekordlarına, Həcc ziyarəti zamanı 1300 zəvvarın ölümünə, Avropanın bəzi şəhərlərində turizm məkanlarının, məktəblərin bağlanmasına ölümcül isti dalğasının səbəb olduğunu vurğulayıb. O, bu hadisələrin Asiya və Afrikada 80 milyondan çox uşağa təsir etdiyini diqqətə çatdırıb.

"Həddindən artıq istilər getdikcə iqtisadiyyatları parçalayır, bərabərsizliyi genişləndirir, dayanıqlı inkişaf məqsədlərini pozur", - deyə Antonio Quterreş bildirib.

BMT rəhbərinin sözlərinə görə, istilərin ildə yarım milyon insanı öldürəcəyi təxmin edilir ki, bu da tropik siklonlardan 30 dəfə çoxdur. O, hökumətlər, eləcə də özəl sektor, şəhərlər və bölgələr də daxil olmaqla, liderləri müvafiq istiqamətdə tədbirlər görməyə çağırıb.

İqlim fəaliyyətinin həm də maliyyə tələb etdiyini qeyd edən Baş katib COP29-un əhəmiyyətindən də danışıb.



# Öz budağından yıxılan ağac

## Onore de Balzakın "Qorio ata" romanı haqqında

***Ədəbi təsirlə ədəbi oğurluğu qarışdırmaq olmaz, hərçənd bunları bir-birindən ayırmaq elə də asan deyil. Məsələn, Onore de Balzakın "Qorio ata" romanının Şekspirin "Kral Lir" faciəsindən ilhamlandığına mənim şübhəm yoxdur, hər iki əsərdə insana xas ən ali duyğulardan sayılan nəsil instinktinin necə kor, necə amansız, necə tragik bir hiss olduğu göstərilir. Bəşəriyyəti bu günə gətirib çıxaran bunca möhtəşəm instinkt, ataliq duyğusu adını çəkdiyim əsərlərdə faktiki ifşa olunur.***

**"Təsir, yoxsa oğurluq?" adlı yazıdan**

Şekspirin "Kral Lir" pyesiylə Balzakın "Qorio ata" romanı qardaş əsərlərdir. Hər ikisi övladlarından yarımayan atadan - öz budağından yıxılan ağacdan bəhs eləyir. Eynən Şekspir kimi Balzak da insan ehtiraslarının tüğyanını, vəhşi tamahın püskürtüsünü təsvir eləməyin böyük ustasıdır. Onun da qəhrəmanı od tutub yanan dünya həvəslərinin alovunda bişib kömürə çıxır, alışıb sonra da sönən arzuların tüstüsündə boğulur. Hər iki dahi bəşər övladına sahibinin içinə vəlvələ salan yırtıcı instinktlərin səsini batırmaqdan, öz yiyəsini kəsən ehtirasları korşaltmaqdan savayı dinclik, asudəlik, xoşbəxtlik yolu qoymur. Şekspir də, Balzak da insan nəslinin Lao Tszı, Budda, Demokrit, Epikür, Seneka kimi böyük müəllimləriylə bir mərtəbədə qərar tutmuş zahidlər, asketlər, sükunət carçılarıdır.

Doğrudur, Şekspirin tragediyasından fərqli olaraq Balzakın romanı yalnız atabala münasibətləri üstündə köklənməyib, burada süjetin şaxələnməsi, insan münasibətlərinin başqa müstəvilərdə, başqa xətlər üzrə gözdən keçirilməsi də var. Belə götürəndə Qorio ata heç romanın baş qəhrəmanı da sayılmalı deyil, bu postu olsa-olsa tələbə Ejen de Rastinyak tuta bilər, çünki bütün xətlər, süjetlər qoca Qorioda yox, gənc Ejendə kəsişir. Bununla belə, adından da göründüyü kimi, əsərin mərkəzində öz qızlarının divanəsi olan zavallı atanın faciəsi durur. Biz də romanı daha çox bu kontekstdə, Şekspir faciəsinin davamı, daha doğrusu, "Kral Lir" mövzusunun on doqquzuncu əsr reallıqları içində yeni zühuru kimi nəzərdən keçirməyə çalışacağıq.

***

Lir krallıq, cəngavərlik epoxasının, zadəganlıq əsrinin qəhrəmanı idisə, Qorio burjua dönəminin, qızılın qılıncı kəsdiyi, kapitalın taxt-taca dov gəldiyi dövrün maliyyə krallarındandır. O, Fransa burjua inqilabının tüğyan elədiyi, ölkədə qanın su yerinə axıdıldığı illərdə fürsəti fövtə verməyib buğda alverinə girişməklə, vermişel fabriki açmaqla böyük sərvət qazanıb.

Qızlarına nə qədər bağlı olsa da, kral Lir kimi onu da yaxşı adam, əxlaq, mənəviyyat örnəyi saymaq olmaz. Doğrudur, Qorio sərvətini pozğunluğa, əyyaşlığa, baş kəsdirib ev yıxmağa, ya özgə bir əxlaqsız yola xərcləməyib, tam tərsinə, canından artıq istədiyi qızlarına böyük məbləğdə cehiz verib - hərəsinə təqribən yarım milyon frankdan artıq. O dövr üçün bu, olduqca böyük məbləğdir. Özünə isə birtəhər keçinmək üçün cüzi məbləğ saxlayıb. Ancaq qızlar yenə ondan əl çəkmirlər, qoca atalarının olub-qalan qəpik-quruşunu da qəddarcasına, görməmişcəsinə talamaqdan usanmırlar.

Qorio atanın böyük qızı Anastazi de Resto varlı, nüfuzlu qrafın, kiçik qızı Delfina alman əsilli məşhur bankir baron Nusingenin arvadıdır (kürəkənlərin obrazına "Bəşəri komediya" silsiləsindən başqa əsərlərdə də rast gəlinir). Kral Lirdən fərqli olaraq onun üç yox, iki qızı var, atasına rəhmi gələn üçüncü övladın (Kordeliyanın) funksiyasını romanda tələbə Rastinyak yerinə yetirir.

Uşaqlarının anası gənc ikən öləndən sonra Qorio ata ona sədaqətini qoruyub saxlayıb, qızlarını təkbaşına böyüdüb, bütün ömrünü onlara həsr eləyib. O, övladlarına sevgi-məhəbbətlə də yox, dəlicəsinə bir ehtirasla bağlıdır, bu ehtirasın tərkibində ata şəfqətiylə ana şəfqəti qarışıqdır, yəni Qorio balalarına həm ata, həm də ana olub. Dünya bir göz qırpımında xaraba qalsa, onun tükü tərpənməz, təki qızları bu dağıntının altından salamat çıxsınlar. Qızlarsa ər evinə köçəndən, kübar cəmiyyətə qarışandan sonra atalarını həyatlarından siliblər, ona işləri düşəndən-düşənə baş çəkirlər.

***

Yalnız əlahiddə götürülmüş bir obyektə, bir canlıya, bir insana yönələn sevgi gerçək sevgi sayıla bilərmi? Əlbəttə, sayılmamalıdır, çünki gerçək sevginin konkret ünvanı olmamalıdır. Əsl sevgi konkretliyin fövqündə duran universal duyğudur, universal, abstrakt olduğuna görə də müqəddəs duyğudur. "Mənim balam salamat olsun, başqaları nə vecimə" prinsipi insani prinsip deyil, bu prinsip təbii qanun kimi heyvanat aləmində də işləkdir.

Sevgini ehtirasdan ayırmaq üçün onun universal olub-olmadığını yoxlamaq yetər. Bu, başqa məsələ ki, o mücərrəd hiss, abstrakt duyğu ayrı-ayrı konkret hallara, konkret obyektlərə də tətbiq oluna bilər; nəinki oluna bilər, hətta mütləq olunmalıdır. Bunu ən sadə düsturla belə ifadə eləyə bilərik: "Bütün balalar xoşbəxt olsun, mənimki də onların içində". Yaxud da belə: "Bütün xalqlar azad, firavan yaşasın, mənim xalqım da onların arasında, yeri gəlsə, lap ortasında".

***

Əsərin personajları "Vokenin evi" adlı ucuz, pinti pansionda bir araya gəlirlər. Bura Paris cəmiyyətinin aşağı təbəqəsinin tipik modelidir. Ancaq bu pansiondan yüksək təbəqəyə, kübar cəmiyyətə calanan cığırlar da var. İki aləmi bir-birinə bağlayan tellər oxucuya insan toplumunun bütöv mənzərəsini boyaboy görməyə imkan verir. Aydın məsələdir ki, Balzak kimi böyük yazıçılar əsərlərində konkret bir ölkənin, şəhərin adamlarından yox, onların timsalında ümumən insan cəmiyyətindən, insan xislətindən, universal həqiqətlərdən, ümumbəşəri dəyərlərdən bəhs açırlar. Bu mənada "Vokenin evi"ni Balzakın yozumunda dünyanın modeli kimi də qavraya bilərik.

Qorio ata əvvəl-əvvəl pansionun rahat, isti otaqlarından birini kirayələyir. Di gəl, varını-yoxunu qızlarının yolunda xərclədikcə, üstəlik, tamahkar pansion sahibəsi, dul qadın madam Vokenin umacaqlı atmacalarına etinasız qaldıqca Qorionun tənhalıq hücrəsi yavaş-yavaş yaxşıdan pisə doğru dəyişməyə başlayır. Onun tənəzzülü boyunca məkrli madam Voke də Qorionu sakinlərin gözündən salmağa çalışır, qocanın haqqında cürbəcür şayiələr yayır. Bəzi sakinlər gözəl, yaraşıqlı kübar xanımların tez-tez ziyarət elədiyi Qorio atanı qoca arvadbaz, şəhvət düşgünü kimi qələmə verirlər, zavallı Qorio onu ziyarətə gələnlərin doğmaca qızları olduğunu desə də, heç kim buna inanmır: o cür varlı-hallı xanımların atasının belə miskin bir insan tövləsində çürüdüyünə necə inansınlar axı! Yalnız hələ gənclik saflığına ləkə düşməmiş Rastinyak məsələni dəqiqləşdirəndən, bundan sonra həmin mövzuda Qorio ataya sataşanların onu qarşısında görəcəyini bəyan eləyəndən sonra şər-şəbədə qoşanların ağzına möhür vurulur.

Yaşı yetmişi haqlamış Qorio atanın bütün ehtirasları çoxdan sönüb, onun heç doyunca yeyib-içməyə, ləziz təamlarla bəslənməyə də həvəsi qalmayıb. Arabir yenidən alverə qurşanacağını, Ukraynadan sərfəli qiymətə taxıl gətirib qısa vaxtda varlanacağını dilinə, xəyalına gətirsə də, həyatın üstünə bu sayaq qıcanmalar, əli puldan kəsilmiş keçmiş tacirin bu isterik tutmaları qatilinin dişləri boğazına kilidlənmiş ovun havanı təpikləməsinə bənzəyir.

Əslində, onun varlanmağa da meyli yoxdur, pula, sərvətə də tamahı keçmir, bütün bunlar qızlarının qayğılarını azaltmaq, onları kürəkənlərinin istismarından, əsarətindən qurtarmaq üçün göyün boşluğuna üfürülən arzulardır. Halbuki Qorionun qızları eynən özləri kimi əxlaqsız, şərəfsiz oynaşlarını yedirtmək, onların külli miqdarda qumar borclarını ödəmək üçün təkcə atalarını yox, ərlərini də cürbəcür hiyləli yollarla soyub talayırlar, onlardan gizli qiymətli girovlar qoyub qəddar sələmçilərdən ağır faizlə pul götürürlər (bununla bağlı çox təsirli bir epizod "Qobsek" novellasında da var). Ancaq Qorio atanın kor nəsil instinkti, kar övlad ehtirası kürəkənlərinin yamanlığını görsə də, övladlarının alçaqlığına göz yumur.



**F.Uğurlu**

**davamı növbəti sayımızda**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



**MÜSABİQƏ ELANI**

Azərbaycan Respublikası Audiovizual Şurası peyk yayımı həyata keçirən platforma yayımçısı (televiziya) lisenziyasının verilməsi üçün 29 iyul 2024-cü il tarixdən 08 sentyabr 2024-cü il tarixədək müsabiqə elan edir.

Müsabiqədə iştirakla bağlı bütün məlumatları Azərbaycan Respublikası Audiovizual Şurasının rəsmi veb-saytının (www.acra.gov.az) “Müsabiqə elanları” bölməsinə daxil olmaqla almaq olar.

**Telefon: (012) 598-32-24; (012) 434-81-07.**



# “Səssiz qatil”...

İnsanlar bu xəstəliyin yoluxma yollarını dəqiq bilməlidirlər. Necə və haradan yoluxduqları barədə məlumatlı olsalar, xəstəliyin müəyyən qədər qarşısını ala bilərlər. Söhbət bu gün istər böyüklər, istərsə də azyaşlı uşaqlar arasında geniş yayılmış Hepatitdən gedir. Hər birimiz hepatit xəstəliyi haqqında eşitmişik, ancaq bu xəstəliyin fəsadları haqqında yetəri qədər məlumatlı deyilik.

**Hepatit nədir?**

Hepatit qaraciyərin iltihabına gətirən ciddi virus xəstəliyidir. Xəstəliyin 3 növü var: Hepatit A, Hepatit B, Hepatit C.

Hepatit və ümumilikdə qaraciyər xəstəlikləri təkcə viruslar tərəfindən baş vermir. Müxtəlif proseslər hepatitə səbəb ola bilər. Viruslar fərqli olduğu kimi, yoluxma yolları da fərqlidir. Hepatit A fekal-oral yolla ötürülür. Hepatitin bu növü ən çox yay fəslində pis yuyulmuş meyvə tərəvəz və ya keyfiyyətsiz içməli sudan yayılır. Xəstəlik qusma, diareya ilə başlayır. Xəstənin göz bəbəyi saralır. Hepatit A xəstəsi 50 gün ərzində yoluxucudur.

**120 milyon insan...**

Qeyd edək ki, HAV virusunun mənbəyi insandır. Dünyada təqribən 120 milyon insanın HAV-a yoluxduğu bildirilir. Mütəxəssislərin sözlərinə görə, bu xəstəlik 2-6 yaş aralığındakı uşaqlarda üstünlük təşkil edir. 14 yaşından sonra isə daha az rast gəlinir.

**Xərçəngə çevrilə bilər...**

Xəstəliyin ilkin spesifik əlamətləri olmasa da, əsasən iştahasızlıq, yorğunluq, zəif ürəkbulanma və halsızlıqdan şikayətlər olur. “Səssiz qatil” adlandırılan hepatit C xəstəliyi uzun müddət orqanizmdə qalır və sonradan ciddi fəsadlara səbəb olur. Aktiv Hepatit C keçirən xəstələrin 15-20 faizi tamamilə normal vəziyyətə qayıtsa da, xəstələrin çoxunda Hepatit C virusu qandan təmizlənmir və xroniki hala çevrilir. Ancaq onların təxminən 20 faizində qaraciyər serozu və ilk infeksiyadan 30-40 il sonra, hətta 40 yaşdan yuxarı xəstələrdə Hepatit C mənşəli xərçəngə çevrilir.

Xatırladaq ki, sabah-28 iyul Beynəlxalq Hepatitlə Mübarizə Günüdür. 2010-cü ildə Ümumdünya Səhiyyə Assambleyası hepatit viruslarının qarşısının alınması və onunla mübarizəyə kompleks yanaşmasını dəstəkləyən WHA63.18 saylı Qərar qəbul edib. Həmin gün hepatit barədə daha geniş anlaşmanın təbliğinə və bütün dünya ölkələrində yoluxmaya qarşı profilaktik tədbirlərin gücləndirilməsinin stimullaşdırılmasına xidmət edir.

# Vəhşi təbiətin ən güclü pişik növü...

Şübhəsiz ki, pişikkimilər fəsiləsinin nümayəndələri- yaquar, pişik, şir və leopard arasında həm güc, həm də böyüklük baxımından pələnglər birincidir. Pələnglər, ümumiyyətlə Cənub və Şərqi Asiyada olur. Boyları 5 metrə qədər çata bilən pələnglər ətcildirlər. Ancaq heyvan əti ilə qidalanırlar.



Yaquar kimi pələnglər də üzməyi sevirlər. Buna görə də adətən su kənarlarında yaşayarlar. Hətta pələnglər göllərdə, su çuxurlarında və dənizdə çimirlər. Hava çox isti olduqda sərinləmək üçün suya girirlər.

**Hazırda mövcud olan növlər...**

Hazırda Bengaliya, İndoneziya, Malayziya, Sumatra, Cənubi Çin və Sibir pələnglərinin növləri mövcuddur. Bunların içərisində ən böyüyü Sibir pələngidir. Sayına görə isə Bengaliya pələngi üstünlük təşkil edir.

**9 pələng növünün nəsli tükənib**

20-ci əsrdə pələngin adı “itən növ” kimi Beynəlxalq Təbiəti Mühafizə İttifaqının “Qırmızı Kitabı”na, Rusiyanın, eləcə də digər ölkələrin mühafizə sənədlərinə daxil edilib. Belə ki, müasir pələng növlərinin 15 növündən 9-nun nəsli tükənib. Geriyə qalan 6 növ də təhlükə altındadır. Dünya Vəhşi Təbiət Fondunun məlumatına görə, 20-ci əsrin əvvəllərində Yer üzündə təxminən 100 min pələng yaşayıb. Bu heyvanların nəslinin tükənməsinin əsas səbəbləri onlar üçün zəruri olan təbii yaşayış yerlərinin yox edilməsi və pələnglərin ovlanmasıdır.

**Həm qüvvətli, həm qorxaqdırlar...**

Pələnglər nə qədər qüvvətli və cəld olsalar da, bir o qədər ehtiyatlı və qorxaqdırlar. Onlar öz şikarının üstünə 6-7 metr məsafədən və 3 metr hündürlüyündən atıla bilirlər.

Yeri gəlmişkən, iyulun 29-u Beynəlxalq Pələnglər Günüdür. Bu əlamətdar gün artıq 13 ildir ki, qeyd olunur. Məqsəd ictimaiyyətin diqqətini pələnglərin nəslinin kəsilməsi və mühafizəsi probleminə cəlb etmək, əhalini məlumatlandırmaqdır.

*Yeganə BAYRAMOVA*

## İdman

Mobil cihazların idarə edilməsi
Cihazlarınızın təhlükəsizliyi və onlara nəzarət




# Azercell Biznes “Mobil Cihazların İdarə Edilməsi” həllini təqdim edir

## Yeni xidmət şirkətlərə korporativ cihazları vahid həll vasitəsilə effektiv şəkildə idarə etmək imkanı verir

İnnovativ məhsulları ilə müştərilərinin kibertəhlükəsizlik imkanlarını gücləndirməyi hədəfləyən Azercell Biznes “Mobil Cihazların İdarə Edilməsi” həllini istifadəyə verir. İş tapşırıqlarının məsafədən yerinə yetirilməsi məqsədi ilə əməkdaşlarını smartfon, planşet, əl terminalları və s. mobil cihazlarla təmin edən şirkətlər bu yenilikdən faydalana biləcək.

Yeni həll şirkətdə informasiya təhlükəsizliyinin qorunması, korporativ cihazlar üzərində mərkəzləşdirilmiş idarəetmə və nəzarət sistemi kimi bir çox üstünlükləri özündə cəmləşdirir. Bununla da “Mobil Cihazların İdarə Edilməsi” təşkilatda insan resurslarından səmərəli istifadəni təmin edir və ümumilikdə şirkətdaxili xərclərin optimallaşdırılmasına töhfə verir:

* Təhlükəsizlik: şirkət sirrinin qorunmasını təmin etmək üçün cihazın müəyyən funksiyalarının aktivləşdirilməsi/deaktivləşdirilməsi, cihaz itdiyi/oğurlandığı halda korporativ məlumatların cihazdan dərhal silinməsi və ya cihazın bloklanması imkanı;

* Nəzarət: mərkəzləşdirilmiş idarəetmə, lokasiya nəzarəti, eyni anda bir neçə cihazda müxtəlif əməliyyatlar icra etmək, istifadə hesabatlarını canlı izləmək, şirkət məlumatlarını (fayl, tətbiq və s.) asanlıqla yükləmək/silmək imkanı;

* Məsafədən idarəetmə: yarana biləcək nasazlıqların operativ şəkildə müəyyən edilməsi və aradan qaldırılması, şirkət siyasətinə uyğun olmayan istifadənin qarşısını almaq üçün cihazlara müxtəlif qaydaların tətbiq edilməsi.

Müştəri məmnuniyyətini hər zaman diqqət mərkəzində saxlayan Azercell Biznes innovativ həlləri ilə abunəçilərinə rəqəmsallaşan biznes mühitində dəstək olmağa davam edəcək.

“Mobil Cihazların İdarə Edilməsi” haqqında ətraflı məlumat üçün: Cihazlarınızın təhlükəsizliyi və onlara nəzarət - “Mobil cihazların idarə edilməsi” | Azercell Biznes

# Azərbaycan Deflimpiya Komitəsinin idmançıları beynəlxalq turnirdə iştirak edəcəklər




Azərbaycan Deflimpiya Komitəsinin karate idman növü üzrə təmsilçiləri “Russia Open” beynəlxalq turnirində iştirak edəcəklər.

Komitədən AZƏRTAC-a verilən məlumata görə, yarışda Səma Tağızadə (47 kiloqram) və Elnur Qasımzadə (67 kiloqram) mübarizə aparacaqlar.

Qeyd edək ki, iyulun 27-28-də Rusiyanın Soçi şəhərində keçiriləcək beynəlxalq turnir dekabrın 15-dən 20-dək Malayziyada baş tutacaq deflimpiya üzrə dünya çempionatına hazırlıq məqsədi daşıyır.

# Olimpiya Oyunlarında ilk dünya rekordu qeydə alınıb

Cənubi Koreyadan olan Lim Si Hyun 2024-cü ildə Parisdə keçirilən Olimpiya Oyunlarında kamandan oxatma üzrə yeni dünya rekordu müəyyənləşdirib.

AZƏRTAC xəbər verir ki, Lim Si Hyun 2019-cu ilin dünya rekordunu qırıb.




21 yaşlı idmançı mümkün 720 xaldan 694 xal toplayaraq kvalifikasiya qazanıb.

Bu, Parisdə keçirilən cari Oyunlarda qeydə alınan ilk dünya rekordudur.

# “Paris-2024”: Azərbaycan boksçularının rəqibləri müəyyənləşib




“Paris-2024” Yay Olimpiya Oyunlarının boks yarışlarının püşkatma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, püşkatmaya əsasən, Azərbaycan idmançılarının da ilk rəqibləri bəlli olub.

Millimiz yarışda 5 kişi boksçu ilə mübarizə aparacaq. Olimpiadada bu növ üzrə döyüşlər iyulun 27-də başlayacaq və avqustun 11-də yekunlaşacaq.

1/8 final

**28 iyul**

Alfonso Dominqes (92 kiloqram) - Xulio Sesar la Krus (Kuba)

**29 iyul**

Malik Həsənov (63,5 kiloqram) - Laşa Quruli (Gürcüstan)

Məhəmməd Abdullayev (+92 kiloqram) - Nelvi Tiafak (Almaniya)

**30 iyul**

Nicat Hüseynov (51 kiloqram) - Yunior Alkantara Reyes (Dominikan Respublikası)

Murad Allahverdiyev (80 kiloqram) - Abdelrahman Abdelqavvad (Misir)

# AFFA Hakimlər Komitəsinin yeni sədri müəyyənləşib



AFFA Hakimlər Komitəsinin yeni sədri müəyyənləşib.

AZƏRTAC AFFA-nın rəsmi saytına istinadən xəbər verir ki, bu vəzifəyə belçikalı mütəxəssis Frank de Bleker təyin olunub.

AFFA İcraiyyə Komitəsinin iyulun 12-də keçirilmiş son iclasında Hakimlər Komitəsinin sədrliyinə namizədlərdən belçikalı Frank de Blekerin beynəlxalq təcrübəsi və peşəkar fəaliyyəti nəzərə alınaraq, müsbət rəy verilib.

Müqaviləyə dair bəzi şərtlərin müzakirəsinə ehtiyac yaranıb. Həmin məsələlərlə bağlı razılıq əldə olunduqdan sonra belçikalı FIFA referisi ilə 3 il müddətinə müqavilə imzalanıb.

Qeyd edək ki, Frank de Bleker iyulun 28-dən Azərbaycan Premyer Liqası və I Liqa hakimlərinin təlim-məşq toplanışına rəhbərlik edəcək.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4371
Sifariş: 1653
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli